# Tərəflər razılığa gəlib

Qırğızıstan və Tacikistan qoşunlarını sərhəddən çıxarır



**Qırğızıstan və Tacikistanın nümayəndələri hərbi texnikanın münaqişə zonasından çıxarılması barədə razılığa gəliblər.**

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Qırğızıstan Milli Təhlükəsizlik Komitəsinin sərhəd xidməti məlumat yayıb.

Danışıqlar zamanı əlavə qüvvə və vasitələrin daimi dislokasiya məntəqələrinə çıxarılması ilə bağlı qərar qəbul edilib.

"Dərhal tərəflər silahlı qüvvələrini və hərbi texnikanı hadisə yerindən çıxarmağa başlayıblar", - məlumatda deyilir.

*Xatırladaq ki, bu gün Qırğızıstan və Tacikistan sərhədçiləri arasında ardıcıl olaraq iki atışma baş verib. İkinci atışma zamanı bir qırğız əsgəri yaralanıb.*

## Dünya Bankı Ukraynaya 1,5 milyard dollar məbləğində yardım verəcək

**Dünya Bankı Ukraynada əhaliyə dövlət xidmətlərinin göstərilməsinə dəstək məqsədilə 1,5 milyard dollar məbləğində yardım ayırıb.**

Trend-in məlumatına görə, bunu Dünya Bankının prezidenti Devid Melpas deyib.

O bildirib ki, qurumun donor ölkələri həmin məbləğin Ukraynaya təqdim olunmasına razılıq verib.

Bundan başqa, Moldova üçün də 100 milyon dollar məbləğində yardım nəzərdə tutulub.


№ 63 (5585), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 aprel 2022-ci il (çərşənbə)




# Bərdədə güclü külək dağıntılar yaradıb

Ağac evin üstünə aşıb, nəticədə 3 nəfər xəsarət alıb

**Bərdə rayonunda güclü külək dağıntılar yaradıb, irigövdəli ağac evin üstünə aşıb. Nəticədə 3 nəfər xəsarət alıb.**

Trend-in yerli bürosu xəbər verir ki, rayonun bir neçə kəndində fərdi yaşayış evlərinə ciddi ziyan dəyib, habelə, şəhərin Heydər Əliyev prospektində yerləşən fərdi yaşayış evinun üzərinə irigövdəli ağac aşıb. Bir neçə saat davam edən güclü külək elektrik təsərrüfatına da ziyan vurub. Elektrik dirəkləri aşıb, xətlər isə qırılıb. Nəticədə rayona verilən elektrik enerjisində fasilələr yaranıb.

Bundan başqa, irigövdəli ağaclar və onların budaqları küləyin təsirindən qırılıb. Nəticədə mini avtomobillərinə də ziyan dəyib.

(səh.4)



## Aİ Ermənistan və Azərbaycan arasında təması tam dəstəkləyir

Toivo Klaarın Hikmət Hacıyev və Armen Qriqoryanla telefon danışığı olub

**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə Xüsusi Nümayəndəsi Toivo Klaar Azərbaycan və Ermənistan rəsmiləri ilə telefon danışığı aparıb.**

Toivo Klaar bu barədə tviterdə bildirib.

O, dünən və bu gün Azərbaycanla Ermənistanın xarici işlər nazirləri, eləcə də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla yaxşı müzakirələr apardığını vurğulayıb.

"Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında təması tam dəstəkləyir", - Aİ diplomatı qeyd edib.

## Ərdoğanın sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib

Toplantıda Azərbaycanla Ermənistan arasında sülh prosesi və başqa məsələlər müzakirə olunub



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə Nazirlər Kabinetinin iclası keçirilib.**

Toplantıda Azərbaycanla Ermənistan arasında sülh prosesi, həmçinin Rusiya-Ukrayna müharibəsi, Türkiyədə iqtisadi vəziyyət və başqa məsələlər müzakirə olunub.

Kabinetin müzakirə edəcəyi məsələlər arasında terrorçuluğa qarşı mübarizə və yay fəslində davam edəcək əməliyyatlar da olub.

Məlumata görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iclasdan sonra ölkə əhalisinə müraciət edəcək.

# "Ermənistan bizim planlarımızı əngəlləyə bilməz"

Prezident İlham Əliyev: "Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq"



**"Bu ilin sonuna qədər görüləcək bəzi işlər haqqında danışmalıyıq. Mən bu gün ancaq Qarabağ və Şərqi Zəngəzurda görüləcək işlərlə bağlı, planlarımız haqqında deyəcəyəm. Çünki bütün ölkə üzrə görüləcək işləri dilə gətirsəm, çox vaxt lazım olacaq".**

Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə deyib.

Dövlət başçısı bildirib ki, ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir:

"Vətəndaşları narahat edən məsələlərlə bağlı onlar müraciət edirlər, həm mənə, həm də Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur. Ona görə investisiya proqramımızı tərtib edərkən, əlbəttə ki, yerlərdən gələn təkliflərə üstünlük verilir. O ki qaldı, Qarabağ və Şərqi Zəngəzurdakı işlərə, orada hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik. Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi. Mən bu gün onların hamısını sadalasam, yenə də çox vaxt gedəcək.

(səh.2)

# İnsanlar bankdan yox, deputatlardan kredit istəyirlər

Rayonlarda onlarla vətəndaş maaş, pensiya kartını sələmçiyə verib



**Dünən Milli Məclisin yaz sessiyası çərçivəsində növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 6 məsələ olub.**

Öncə Milli Məclisin sədri Sahibə Qafarova komitə iclaslarının Şuşada keçirilməsindən danışıb. Spiker vurğulayıb ki, iclasların Şuşada keçirilməsinin qrafiki müəyyənləşib:

"Mən ilin əvvəllərində komitə sədrlərinin diqqətinə çatdırmışdım ki, aprel ayından başlayaraq Milli Məclisin komitə iclaslarından biri Şuşa şəhərində keçirilsin". Sədr bildirib ki, bu iclasın artıq biri baş tutub.

(səh.3)



## "Yenidən çıxılmaz vəziyyətə qayıtdıq"

Vladimir Putin: "Ukrayna tərəfi İstanbul razılaşmasından uzaqlaşdı"

**Biz İstanbul görüşündə Ukrayna ilə müəyyən razılığa gəldik. Bu razılıq ondan ibarət idi ki, Ukrayna üçün təhlükəsizlik təminatı Krım, Sevastopol və Donbas ərazisinə aid edilməyəcək.**

Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Belarus həmkarı Aleksandr Lukaşenko ilə "Vostoçnıy" kosmodromunda keçirilən görüşündə söyləyib.

"Rusiya danışıqların davam etməsi üçün şərait yaratdı. Lakin Ukrayna tərəfi İstanbul razılaşmasından uzaqlaşdı. İndi təhlükəsizlik təminatı məsələsi ayrıca müzakirə olunur, Krım, Sevastopol və Donbas məsələsi bu danışıqlar çərçivəsindən kənara çıxarılıb. Başqa sözlə, yenidən çıxılmaz vəziyyətə qayıtdıq", - deyə V.Putin bildirib.

## 36 nəfər koronavirusa yoluxub, ölən yoxdur

24 nəfər müalicə olunaraq sağalıb



Azərbaycan Respublikasının ərazisində COVID-19 ilə bağlı son vəziyyət

| Ümumi | | Bu gün 12.04.2022 | |
|---|---|---|---|
| Ümumi yoluxanların sayı | 792289 | Yeni yoluxanların sayı | 36 |
| Ümumi sağalanların sayı | 782375 | Yeni sağalanların sayı | 24 |
| Aktiv xəstə sayı | 211 | Bugünkü test sayı | 4 775 |
| Ümumi test sayı | 6 750 860 | Bugünkü ölüm sayı | 0 |
| Ümumi ölüm sayı | 9 703 | | |



**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 36 yeni yoluxma faktı qeydə alınıb, 24 nəfər müalicə olunaraq sağalıb.**

Bu barədə "Şərq"ə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslər arasında vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 289 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 782 375 nəfər müalicə olunaraq sağalıb, 9 703 nəfər vəfat edib, aktiv xəstə sayı 211 nəfərdir.

*Ölkədə son sutka ərzində 4 775, hazırkı dövrədək isə 6 750 860 test aparılıb.*

## Polis bölgəni nəzarətə alıb

Nyu-York metrosunda silahlı şəxs insanları güllələyib, 13 yaralı var



**ABŞ-ın Nyu-York şəhərində metro stansiyalarının birində silahlı şəxs ətrafdakı insanları güllələyib.**

Trend-in məlumatına görə, hadisə nəticəsində azı 13 nəfər yaralanıb. Yaralılardan bir neçəsinin vəziyyətinin ağır olduğu deyilir.

İnsident şəhərin Bruklin rayonunda qeydə alınıb. Hadisədən sonra metroda hərəkət dayandırılıb.

*Polis bölgəni nəzarətə alıb.*

## Azərbaycanda dini sahəyə çox böyük diqqət və qayğı göstərilir

Ceyhun Məmmədov: "İlahiyyat İnstitutu ölkəmizdə savadlı dini kadrların yetişdirilməsinə ciddi töhfə verəcək"

(səh.4)



## "Brüssel danışıqları Ermənistan cəmiyyətində ciddi şok yaradıb"

Abutalıb Səmədov: "Mübarizə bitməyib, İrəvan mane olmağa davam edəcək"

(səh.4)



# "Ermənistan bizim planlarımızı əngəlləyə bilməz"

## Prezident İlham Əliyev: "Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq"



**”Bu ilin sonuna qədər görüləcək bəzi işlər haqqında danışmalıyıq. Mən bu gün ancaq Qarabağ və Şərqi Zəngəzurda görüləcək işlərlə bağlı, planlarımız haqqında deyəcəyəm. Çünki bütün ölkə üzrə görüləcək işləri dilə gətirsəm, çox vaxt lazım olacaq”.**

**Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev aprelin 12-də bu ilin birinci rübünün yekunlarına həsr olunmuş müşavirədə deyib.**

Dövlət başçısı bildirib ki, ölkə üzrə bütövlükdə investisiya proqramının icrası nəticəsində işlər plan üzrə gedir və hər bir bölgədə vətəndaşlar bunu görürlər. Bir çox layihələr vətəndaşların məktubları əsasında icra edilir:

”Vətəndaşları narahat edən məsələlərlə bağlı onlar müraciət edirlər, həm mənə, həm də Prezident Administrasiyasına, hökumətə, aidiyyəti qurumlara və hər bir müraciət diqqətlə əhatə olunur. Ona görə investisiya proqramımızı tərtib edərkən, əlbəttə ki, yerlərdən gələn təkliflərə üstünlük verilir. O ki qaldı, Qarabağ və Şərqi Zəngəzurdakı işlərə, orada hələ ki, heç kim yaşamır. Ona görə biz orada görüləcək işləri mərkəzləşdirilmiş qaydada etməliyik və edirik. Keçən il genişmiqyaslı abadlıq-quruculuq işlərinə start verildi, böyük infrastruktur layihələri icra edildi. Mən bu gün onların hamısını sadalasam, yenə də çox vaxt gedəcək.

Bu ilin sonuna qədər və növbəti bir-iki il ərzində görüləcək işlərlə bağlı öz tapşırıqlarımı bir daha vermək istəyirəm. Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam. Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan biz vətəndaşları o bölgələrə yerləşdirə bilmərik. Ancaq tam əmin olandan sonra ki, o ərazilər minalardan təmizlənib, biz vətəndaşları o ərazilərə yerləşdirə bilərik”.

**Prezident vurğulayıb ki, keçən ay İranla Azərbaycan arasında körpülərin, dəmir yolu körpülərinin tikintisi ilə bağlı memorandum imzalanmışdır:**

”Eyni zamanda, o memorandumda elektrik xətlərinin çəkilişi ilə bağlı müddəa var. Ona görə biz bu işlərə də tezliklə başlamalıyıq. Hər halda, Azərbaycan ərazisində görüləcək işlərlə bağlı bu il konkret təkliflər verilməlidir. Cəbrayıl yarımstansiyasından Zəngilana qədər xətlərin çəkilməsi və İran İslam Respublikası ilə son razılaşmaya gələndən sonra artıq İran üzərindən bu xətt gedə bilər.

Eyni zamanda, avtomobil körpülərinin və dəmir yolu körpülərinin inşası da nəzərdə tutulur. Əlbəttə, bu, Zəngəzur dəhlizinin açılmasını inkar etmir. Zəngəzur dəhlizi açılmalıdır. Zəngəzur üzərindən həm dəmir yolu, həm avtomobil yolu məsələsi ilə bağlı aprelin 6-da Brüsseldə geniş fikir mübadiləsi aparılmışdır. İran üzərindən yolun Naxçıvana çəkilməsi və oradan dünya bazarlarına çıxarılması layihəsi də artıq hazırlanır. Ümid edirəm ki, yaxın gələcəkdə təməlqoyma mərasimi də keçirilə bilər və beləliklə, yeni beynəlxalq nəqliyyat dəhlizi açılacaqdır. Ümumiyyətlə, bizim nəqliyyat infrastrukturu ilə bağlı olan bütün planlarımız vaxtlı-vaxtında yerinə yetirildi. Əgər bu gün həm limana, həm dəmir yollarına, həm hava limanlarına, avtomobil yollarına və digər infrastruktura bu böyük investisiyalar qoyulmasaydı, Azərbaycan, əlbəttə ki, yeni yaranan bu imkanlardan məhrum ola bilərdi. Ancaq, əksinə, biz bu gün öz nəqliyyat infrastrukturumuzu maksimum işə sala bilərik. Gəmiqayırma zavodunda yeni yük gəmiləri, tankerlər inşa edilir. Yəni, bütün bunlar vaxtında atılmış addımlardır. Əgər biz gəmiqayırma zavodunu inşa etməsəydik, bu gün bu imkanlardan istifadə edə bilməzdik. İndi isə biz heç kimdən asılı deyilik. Nə qədər istəsək, o qədər də bərə, tanker, yük gəmisi inşa edə bilərik və Xəzər üzərindən yükdaşımaların həcmini bu il artıracağıq və gələn il daha da artıracağıq.

Onu da bildirməliyəm ki, 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmir yolunun 60 kilometri artıq hazırdır. Yəni, biz sürətlə gedirik. Dörd və altı zolaqlı avtomobil yolu da çəkilir.

Mən bir məsələyə də diqqət yetirmək istərdim. Ermənistan da görməlidir ki, o, bizim planlarımızı əngəlləyə bilməz. Əgər Zəngəzur üzərindən bizə keçid verməsə, özü itirəcək və birinci növbədə, 10 noyabr Bəyannaməsini pozmuş olacaq. Çünki 10 noyabr Bəyannaməsində açıq-aşkar yazılıb ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqə olmalıdır və bu, Ermənistanın öhdəliyidir. Əgər o, öz öhdəliyini yerinə yetirmək istəmirsə, onda biz də hər hansı bir öhdəliyin yerinə yetirilməsi ilə bağlı heç bir məsuliyyət daşımayacağıq. Onlar bunu bilməlidirlər, vaxtı uzatmamalıdırlar. Onsuz da biz istədiyimizə gec-tez nail olacağıq. Daha yaxşı olar ki, onlar özləri də bir az cəld tərpənsinlər. Yoxsa yenə də dalan kimi qalacaqlar”.

**Prezident digər infrastruktur layihələrə də toxunub:**

”Bərdə-Ağdam dəmir yolunun inşası bu il davam edir. Yəqin ki, gələn il istifadəyə veriləcəkdir. Bununla paralel olaraq, Ağdamda və Füzulidə dəmir yolları, vağzalları da inşa edilməlidir. Layihələr təqdim edilməlidir və aidiyyəti qurumlar tərəfindən nəzərdən keçirilməlidir və mənə təqdim olunmalıdır.

Nəqliyyat infrastrukturu ilə bağlı digər məsələ Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsidir. Bu da bu ilə nəzərdə tutulur. Azad edilmiş torpaqlarda Füzulidən sonra ikinci beynəlxalq hava limanı olacaq. O ki qaldı, Laçın Beynəlxalq Hava Limanının inşasına, bunu biz 2024-cü ilə planlaşdırırıq. Orada işlərin həcmi çox böyükdür, həm dağlar partladılmalıdır, həm ərazi düzəlməlidir və orada doğrudan da çox böyük torpaq işləri var. Amma o da mütləq olacaq.

Avtomobil yollarının çəkilişinə gəldikdə, bu il Naftalandan Talış kəndinə qədər yollar tam istismara verilməlidir. Bu, eyni zamanda, Naftalanı Suqovuşanla birləşdirəcək. Hər iki yaşayış yeri turizm üçün çox əlverişlidir. Naftalan artıq beynəlxalq turizm mərkəzinə çevrilib və Suqovuşana oradan məsafə çox qısadır. Suqovuşanda da turizm imkanları bu yaxınlarda təqdim edildi - həm turizm, həm yaşayış, həm idman. Yəni, bu yolun çox böyük əhəmiyyəti var və biz Suqovuşana həm Naftalan istiqamətindən, həm də Tərtər istiqamətindən rahatlıqla gedə biləcəyik. Ona görə bu il bu yol istismara verilməlidir.

Laçın şəhərindən yan keçən yeni alternativ yolun istifadəyə verilməsi də bu ilə planlaşdırılır. Bu yolun da çox böyük əhəmiyyəti var və biz bunu artıq bu il istismara verməliyik. Bu il istifadəyə veriləcək yolların arasında Füzuli-Hadrut avtomobil yolu, Qubadlı-Eyvazlı kəndi yolu və digər yollar var. O cümlədən Kəlbəcər və Laçın rayonlarında hərbi əhəmiyyətli yolların çəkilişi davam etdiriləcək. Tarixdə heç vaxt yollar olmayan yerlərdə, ərazilərdə təkcə keçən il 700 kilometrə yaxın yollar çəkilib. Yəni, Azərbaycan-Ermənistan sərhədinə qədər bu yollar çəkilib.

İndi sərhəddə rahat xidmət etmək mümkündür. Davam edən layihələrlə bağlı Azərbaycan ictimaiyyətini məlumatlandırmaq istəyirəm. Deməli, avtomobil yolları arasında Bərdə-Ağdam avtomobil yolunda işlər çox sürətlə gedir, Kəlbəcər-Laçın avtomobil yolu və təxminən 4 kilometrlik tunel inşa edilir. Xudafərindən Qubadlıya, oradan isə Laçına gedən magistral yol inşa edilir. Cəbrayıl-Hadrut yolu inşa olunur. Zəfər yolu açıldı, amma indi Füzuli-Şuşa 4 cərgəli magistral yol, Horadiz-Ağbənd, Ağdam-Füzuli yolları çəkilir. Ən vacib yollardan biri Toğana-Kəlbəcər avtomobil yoludur, çünki bu yol və 12 kilometrlik tunel çəkiləndən sonra daha Murov aşırımından keçməyə ehtiyac qalmayacaq, biz rahat tunellə keçəcəyik. Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi bu il davam etdirilir. Bunun da böyük rəmzi mənası var. İstisu sanatoriyası sovet vaxtında çox məşhur idi. Həm Azərbaycan sakinləri, həm sovet ittifaqının müxtəlif yerlərindən oraya gələnlər çox idi. Amma biz Mehriban xanımla İstisuda olanda dəhşətli mənzərəni gördük. Sanatoriya, su mənbələri tamamilə dağıdılıb. Mən demişəm bu vəhşi qəbilə hər yerə burnunu soxub, o cümlədən oraya. Keçmiş sanatoriyadan ancaq bəzi qalıqlar qalıb. Ona görə mən qərara gəldim ki, orada yeni, müasir otel inşa edilsin. İndi təqribən 150-160 yerlik otelin layihəsi hazırlanır. Biz müalicəvi içməli suyun istehsalına da başlamalıyıq. Bu göstəriş də verildi. İndi ilkin təmaslar olubdur və hesab edirəm ki, bu il hər iki vacib və böyük rəmzi məna daşıyan layihələrin təməli qoyula bilər. Eyni zamanda, əminəm ki, necə deyərlər, bu tarixi ədaləti bərpa edəcəyik və yenə də beynəlxalq səviyyəli kurort yaranacaq. Çünki Laçın aeroportu istifadəyə veriləndən və Toğana-Kəlbəcər avtomobil yolu, tunel çəkiləndən sonra həm Gəncə istiqamətindən, həm Laçın istiqamətindən Kəlbəcərə gəlmək çox rahat olacaq. Əminəm, çox vaxt keçməyəcək ki, İstisu yenə də öz şöhrətini qaytaracaq. Azad edilmiş torpaqlarda indi içməli su mənbələrinin layihələndirilməsi gedir. Onların arasında, əlbəttə ki, Şuşa şəhərinin içməli su layihəsi prioritetdir. Çünki artıq Şuşada insanlar yaşayır. Şuşada yaşayış binaları da tikilir və tezliklə insanlar qayıdacaqlar. Ona görə Şuşanın içməli su layihəsi bu il tam istifadəyə verilməlidir. Ermənilər müharibə zamanı Şuşadan qaçarkən o su xətlərini də partlatmışdılar, növbəti vəhşilik törətmişdilər və işğal dövründə 17 bulağın 17-sini də yararsız vəziyyətə salıb qurutmuşdular. Bunlar vəhşiliyin təzahürləridir və bu, bir daha onu göstərir ki, Şuşa ermənilər üçün həmişə yad şəhər olub. Həmişə Şuşaya paxıllıq edirdilər, öz çirkin arzularını yaşadırdılar ki, nə vaxtsa Şuşanı onlar işğal edəcəklər. Əfsuslar olsun ki, 1992-ci ilin mayında Şuşa milli xəyanət nəticəsində işğal olundu. İndi isə biz Şuşaya qayıtmışıq, biz Şuşanın sahibləri qayıtmışıq və əbədi orada yaşayacağıq. Şuşanın bərpası bütün digər azad edilmiş torpaqlarla yanaşı, əlbəttə ki, çox önəmlidir və hesab edirəm ki, prioritet olmalıdır. Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir. İndi Şuşada artıq bərpa işləri gedir, bəzi tarixi abidələr bərpa edilib və bu il görüləcək işlərlə bağlı tapşırıqlar vermək istəyirəm. Tarixi abidələr bərpa edilir, Heydər Əliyev Fondu 3 məscidi əsaslı şəkildə bərpa edir, eyni zamanda, yeni məscidin inşası yaxın aylarda başlanacaq. Artıq yer müəyyən olundu, biz onun təməlini qoyduq.

İndi digər tarixi abidələrin bərpası gedir. Bəzi təkliflər, eskizlər var və əlbəttə ki, biz Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı bir tarixi memarlıq ansambla xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir. Şuşada yeni teleqüllənin təməli qoyuldu və yəqin ki, yaxın gələcəkdə layihə təqdim ediləcək. Təqdim edilən kimi mütləq vəsait ayrılmalıdır. 960 şagirdlik məktəb, 90 çarpayılıq xəstəxana inşa edilir. Bu layihələrin təməli qoyuldu. Keçmiş poçt binasında ”ASAN xidmət”, DOST mərkəzi və əhaliyə xidmət göstərən digər qurumlar yerləşəcək. Poçt binası memarlığı saxlanılmaq şərti ilə əsaslı şəkildə təmir olunacaq.

Dövlət başçısı onuda bildirib ki, Şuşada yaşayış məhəlləsinin təməli qoyuldu, evlərin inşasına start verildi: “Yeni beşulduzlu otelin inşası üçün yer seçildi. O, həmin yerdir ki, o vaxt qondarma qurum orada dırnaqarası parlament inşa etmək istəyirdi və digər şeytan yuvası orada yerləşmişdi. Müharibə zamanı o da yox oldu. İndi orada beşulduzlu otelin layihəsi mənə təqdim edildi. Şuşanın memarlığına uyğun gözəl bir bina olacaq. Şəhər meriyası binası əsaslı şəkildə təmir edilir və onun yanında yeni konfrans zalı inşa olunur. Çünki indi Şuşada böyük tədbir keçirmək üçün yer yoxdur. Ona görə konfrans zalı meriya binasına bitişik olacaq və orada yaxın gələcəkdə ən mötəbər tədbirlər keçiriləcək.

Gələn ay Şuşada ”Xarıbülbül” festivalı yenidən keçiriləcək. Keçən il Heydər Əliyev Fondunun təşəbbüsü ilə bu festivalda Azərbaycanda yaşayan xalqlar öz istedadını nümayiş etdirmişlər. Bu gün isə eyni zamanda, biz dünyanın müxtəlif ölkələrindən folklor kollektivlərini dəvət etmişik. Artıq məndə ilkin məlumat var, vaxtından qabaq anons vermək istəmirəm, amma hesab edirəm ki, çox maraqlı festival olacaqdır. Artıq bu ənənəni də biz bərpa etmişik. Bildiyiniz kimi, TÜRKSOY Şuşanı 2023-cü ildə ”Türk dünyasının mədəniyyət paytaxtı” elan etmişdir.

Azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin icrası bu il nəzərdə tutulur. Bu layihələrin xüsusiyyəti ondan ibarətdir ki, hazırlıq işləri çox vaxt aparır. Çünki layihələndirmə işləri düzgün aparılmalıdır, yerlər düzgün seçilməlidir. Harada kanal çəkiləcək, harada su anbarı tikiləcək - bu, doğrudan da vaxt aparan məsələdir. Ona görə mən heç kimi tələsdirmirəm. Amma, eyni zamanda, artıq təsdiq edilmiş layihələrin icra edilməsi üçün də biz mütləq vəsait tapmalıyıq. Burada da qeyd olundu ki, biz indi büdcəni profisitlə icra edirik. Vergi orqanları bu ilin 3 ayında proqnozdan əlavə 500 milyon manatdan çox və gömrük orqanları 200 milyon manatdan çox vergi toplamışlar. Yəni, bizim indi imkanımız var”.

**Prezident sonda vurğulayıb ki, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görülür:**

” Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları - biz planlı şəkildə bu işləri görəcəyik. Bu, ancaq azad edilmiş torpaqlarda bu il görüləcək işlərin siyahısıdır və əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq. Azad edilmiş torpaqlarda görülən işlərlə bağlı Azərbaycan xalqına bundan sonra da müntəzəm məlumat veriləcəkdir”.

# İkitərəfli danışıqlar Qarabağda sülhü tezləşdirəcək

## Vasitəçisiz format yarımçıq qalan prosesin tamamlanmasına da imkan yarada biləcək mühüm faktordur



**Aprelin 11-də Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun Ermənistan Xarici işlər naziri Ararat Mirzoyan ilə telefon danışığı baş tutub.**

Tərəflər gələcək sülh sazişinin hazırlanması üzrə birgə iş, Sərhəd Komissiyasının təşkili, habelə humanitar məsələlər üzrə fikir mübadiləsi aparıblar. Ekspertlərin fikrincə, nazirlərin birbaşa dialoqu hər iki tərəf üçün faydalıdır. Bu, danışıqları pozmaq istəyən qüvvələrin planlarına da zərbədir. Böyük ehtimalla birbaşa danışıqlara start verməklə bağlı razılıq Brüsseldə əldə olunub. Telefon danışığı məhz həmin görüşün səmərəsidir. Analitiklərə görə, sülh sazişini müzakirə etmək üçün hər dəfə Moskvaya getməyə ehtiyac yoxdur.

**Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə açıqlamasında bildirib ki, Bakı-İrəvan arasında vasitəçi olmadan baş tutan ilk təmas göstərir ki, ”ikitərəfli danışıqlar” formatı bundan sonra əsas ola bilər. Analitik hesab edir ki, Ermənistan tərəfi Minsk qrupu məsələsindən əl çəkməsə də, reallıqda yeni formatı qəbul edir:** ”Brüsseldə sülh sazişi üzrə razılaşmanın ilk addımı atılır. Sərhəd üzrə birgə komissiyanın yaradılması razılığının praktiki işləməsi imkanı var. Moskvanın ”əsas vasitəçi” olması və bunun üzərindən maraqlarını diktə etməsi perspektivi zəifləyir. Rusiyanın öz vasitəçiliyini saxlaması istiqamətində addımlar atacağı bəllidir. Tərəflər rusların masasında da bir araya gələcək. Lakin ikitərəfli danışıqlar təcrübəsi problemlərin üçüncü tərəf olmadan qarşılıqlı maraqlar çərçivəsində həlli imkanını önə plana çıxara bilər. İkitərəfli format Ermənistanla münasibətlərin qurulmasına, bu ölkənin Azərbaycana qarşı ərazi iddialarından əl çəkməsinə və Qarabağda yarımçıq qalan prosesin tamamlanmasına da imkan yarada biləcək mühüm faktordur”.

**İsmayıl**

# "PCR test tələbi ləğv olunmalıdır"

## Razi Nurullayev: “Həmçinin pandemiya dövründə vətəndaşlara tətbiq olunan cərimələr də ləğv edilməlidir”




**”Operativ Qərargahın şərtlərinə görə, AZAL-la səyahət edənlər 72 saat ərzində alınan COVID-19-a dair PCR testinin mənfi nəticəsi haqqında arayış təqdim etməlidir”.**

**Bunu Milli Məclisin dünənki iclasında millət vəkili Razi Nurullayev deyib. Deputat bildirib ki, vaxt var idi bütün dünya bunu tətbiq etmişdi, amma indi bu tələb aradan qaldırılmalıdır:** ”Əsəb, gərginlik, stres, öz vətəninə qayıda bilməmə qorxusu, xərcə düşmə riski və s. Mən iki dəfə ürəyimi ağrıdan hadisəyə şahidlik etmişəm. Bir dəfə İstanbulda, bir dəfə də İtaliyadan uçanda. Gözü yaşlı ana və körpə uşaq da qucağında. Ana doğulduğu ölkəsinə, ev-eşiyinə, balalarının yanına qayıtmaq istəyirdi. Amma PCR testin yoxdursa, istəyirsən yıxıl öl, icazə verməyəcəklər. Bu yanaşmanın tam əleyhinəyəm və ədalətsiz qərar sayıram. İstanbul hava limanından Bakıya xeyli insana zəng etdim, o qadına kömək edə bilmədim. O isə ümid edirdi ki, bəlkə deputatın sözünü eşidərlər. Olsun, etirazım yoxdur, qanun qanundur. Amma reallıq tələb edir ki, bu qərar dəyişsin”.

Parlament üzvü xatırladıb ki, əksəriyyət üç dəfə peyvənd olunub və pasportları var: ”Əgər kiminsə qızdırması, asqırması, öskürməsi yoxdursa, kağız parçasını bu qədər qiymətə, qanuna, ciddiliyə mindirib, vətəndaşları incitmək yolverilməzdir. O qədər vəzifəli şəxslər var ki, vətəndaşları incidə-incidə, dövlət büdcəsini talayıblar. Manatı qiymətdən salıb, bank sistemini yerlə-yeksan ediblər. Xalqın verdiyi vergidən formalaşan büdcə ilə özlərinə biznes imperiyası yaradıblar. Onlara qarşı sərt olaq. PCR test tələbi ləğv edilsin, antigen və ya birdəfəlik test üsulu lazımdırsa, tətbiq edilsin. Quru sərhədləri açılsın. Otellər işlək vəziyyətə gəlib 5-10 nəfər kasıba çörək qazandırsın. Bu mənim dəyişməz mövqeyimdir. Həmçinin pandemiya dövründə vətəndaşlara tətbiq olunan cərimələr də ləğv edilməlidir. Bizdən kasıb olan ölkələr, qonşu Gürcüstan da belə bir addım atıb. Onun üçün də parlamentin müvafiq komitəsinin bu məsələni müzakirə etməsini və plenar iclasa çıxarmasını xahiş edirəm”.

**İsmayıl Qocayev**

# Ukraynada müxalif siyasətçi həbs olunub



**Ukrayna xüsusi xidmət orqanları “Müxalifət platorması - həyat üçün” Partiyasının siyasi şurasının sədri Viktor Medvedçuku saxlayıb**

APA-nın xəbərinə görə, bu barədə Ukrayna Prezidenti Volodimir Zelenskinin Teleqram kanalında məlumat yayılıb.

”Xüsusi əməliyyat keçirilib. Afərin. Detallar az sonra” - deyə Zelenski qeyd edib.

Fotoda Medvedçuk hərbi formada və qandallı olub.

# Conson Baydeni Zelenski ilə görüşünün nəticələri barədə məlumatlandırıb



**Böyük Britaniyanın Baş naziri Boris Conson və ABŞ Prezidenti Co Bayden arasında telefon danışığı olub.**

APA xəbər verir ki, bu barədə Britaniya Baş naziri ”Twitter”də bildirib.

Boris Conson Ukrayna səfəri və Prezident Zelenski ilə görüşünün nəticələri barədə Co Baydeni məlumatlandırıb. Britaniya Baş naziri qeyd edib ki, o və ABŞ lideri Ukrayna Prezidenti Zelenskini və Ukrayna xalqını azadlıq uğrunda apardığı mübarizədə dəstəkləyir.

”Putinin barbar təşəbbüsünün uğur qazanmasına imkan vermək olmaz”, - Boris Conson vurğulayıb.

# İnsanlar bankdan yox, deputatlardan kredit istəyirlər



## Rayonlarda onlarla vətəndaş maaş, pensiya kartını sələmçiyə verib

**İsmayıl Qocayev**

**Dünən Milli Məclisin yaz sessiyası çərçivəsində növbəti plenar iclası keçirilib. İclasın gündəliyində 6 məsələ olub. Öncə Milli Məclisin sədri Sahibə Qafarova komitə iclaslarının Şuşada keçirilməsindən danışıb. Spiker vurğulayıb ki, iclasların Şuşada keçirilməsinin qrafiki müəyyənləşib:**

"Mən ilin əvvəllərində komitə sədrlərinin diqqətinə çatdırmışdım ki, aprel ayından başlayaraq Milli Məclisin komitə iclaslarından biri Şuşa şəhərində keçirilsin". Sədr bildirib ki, bu iclasın artıq biri baş tutub: "Milli Məclisin komitə iclaslarının Şuşada keçirilməsində məqsəd "Şuşa ili"nə töhfə verməkdir. Milli Məclisin komitə sədrlərinin Şuşa şəhərində keçiriləcək iclaslarının qrafiki artıq müəyyən olunub və komitə sədrlərinə təqdim ediləcək". Deputatlar cari məsələlərlə bağlı çıxışlar ediblər. İlk olaraq "Elman Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin üzvlüyündən azad edilməsi haqqında" qərar layihəsi müzakirəyə çıxarılıb. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili deyib ki, Elman Rüstəmov AMB-nin İdarə heyətinin üzvlüyündən azad olunmaqla həm də sədrlikdən azad olunacaq. Qərar layihəsi səsə qoyularaq bir oxunuşda qəbul olunub.

**"Azərbaycanda insan psixologiyasına təsir edən məhsullar var"**

**Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, Azərbaycanda insan psixologiyasına təsir edən məhsullar var.** "Qida təhlükəsizliyi haqqında" qanun layihəsinin müzakirəsi zamanı çıxış edən deputat vurğulayıb ki, geni dəyişdirilmiş məhsullar əsas problemlərdir: "Hətta artıq Azərbaycana geni dəyişdirilmiş bu meyvələrin özü yox, toxumları gətirilir. Soyuqda bitməsi nəzərdə tutulan və daha çox məhsul verən bitkini gətirib Azərbaycanda əkirlər, onun məhsullarının da insana psixoloji təsiri başqa cür olur. Bitkilərin müxtəlif vəhşi heyvanların genindən formalaşmış və çox məhsul verə biləcək toxumları hazırlanır. Bu toxumlardan alınan məhsullar da insanlarda aqressivliyin artmasına yol açır. Digər məsələ müxtəlif malların, məhsulların rayon yerlərində eyni yerdə satışının təşkil olunmasıdır. Geyim, yemək və digərləri bir yerdə satılır, bu da zəhərlənmə hallarının artmasına səbəb olur".

**"Azərbaycanın kifayət qədər valyuta ehtiyatı var"**

**Siyavuş Novruzov bəyan edib ki, Azərbaycan cəmiyyətində bank sistemində çox ciddi problemlər var.** Onun sözlərinə görə, insanlar artıq bankdan yox, deputatdan kredit istəyir: "Prezident İlham Əliyevin apardığı uğurlu maliyyə siyasətinə baxmayaraq, ölkəmizdə vətəndaşlara verilən kredit faizləri digər ölkələrdən yüksəkdir. Bu faizlər heç olmasa birrəqəmli faizlərə salınsın. Azərbaycanın kifayət qədər valyuta ehtiyatı var. Vətəndaşların bu valyuta ehtiyatlarının müəyyən hissəsinə əlçatanlığı təmin edilməlidir". Deputat bildirib ki, hazırda dünyada pul-maliyyə siyasəti dəyişib: "Digər ölkələrin milli valyutalarında olan problemlər Azərbaycandan da yan keçmir". Spiker Sahibə Qafarova Siyavuş Novruzova cavabında qeyd edib ki, iclasda AMB İdarə Heyətinə üzvün seçilməsi məsələsi müzakirə olunur, ölkənin bank sistemindəki problemlərdən söhbət getmir.

**"Akkord" onlarla fəhləni işlədib, pulunu verməyib"**

**Millət vəkili Fazil Mustafa əhalini narazı salan məmurlardan söz açıb:** "Azərbaycan xalqını, Azərbaycan vətəndaşını dövlətdən narazı salan şəbəkəyə qalib gələ biləcəyik, yoxsa yox? Buna ümid çox azdır". Deputat bildirib ki, artıq vətəndaşlar bankdan borc istəmir, deputatdan istəyir, məşğulluğa yox, deputata üz tuturlar: "Qarabağ savaşından sonra problemlərin bu qədər qabarıq olması insanların dövlətə inamını sarsıtmaq üzrədir: "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC onlarla fəhləni işlədib, pulunu verməyib. Rayonlarda onlarla insan maaş, pensiya kartını sələmçiyə verib, çünki dolana bilmirlər. Bu qədər böyük qələbə qazanmış ölkənin Prezidentinin xalqa qaytardığı inamı bunlar yenidən zədələməsinlər. Bu bizim qarşımızda duran əsas məsələdir".

**Yazıçı Əkrəm Əylisli "Qaynarinfo"nun suallarını cavablandırıb. O, söhbət əsnasında mərhum yazıçı İsa Hüseynov (Muğanna) barədə tənqidi fikirlər səsləndirib. Həmin hissəni olduğu kimi təqdim edirik:**




- Bəli, o vaxtlar da çox tənqid olunmuşam. Ancaq heç vaxt indiki qədər təhrif və təhqir olunmamışam. O vaxt hər kəs dediyinə və yazdığına görə hər halda az-çox məsuliyyət daşıyırdı. İndi hər kəs ağzına gələni deyir və ağlına gələni yazır. Misal üçün, bir məqalə var - İsa Hüseynov haqqında. Məqaləni kim yazıb, bilmirəm. Ancaq rəhmətliyin bütün doğum və anım günlərində o yazını saytlarda təkrar-təkrar yayımlayırlar. Sərlövhəsində də - mənim adım: "Əkrəm Əylislini otaqdan qovdu". Nə vaxt? Nəyə görə? Hansı otaqdan? Bu sualların heç birinin cavabı şəxsən mənə məlum deyil. Ancaq mənə yaxşı məlumdur ki, işlədiyi yerlərdə, İsa Hüseynovun öz otağı heç vaxt olmayıb. Demək, söhbət rəhmətliyin evindəki hər hansı otaqdan gedə bilər. Ancaq mən o evdə heç vaxt olmamışam. Ona görə ki, rəhmətliyin "İsa Hüseynov" olduğu dövrdə məni ora çağıran olmayıb. Onun "İsa Muğanna" olduğu zamanlar isə o evdə uzaq qalaktikalardan gələn o gədər yadplanetli qonaq-qara olub ki, orda mənə, istəsəm də, yer tapılmayıb. Mən xəngəl süfrəsi arxasında hər gün İsa Məsihlə oturan o Muğannanı qəbul eləyə bilmədim, əzizim Ağa! Deyirlər, dahilərin hamısı dəlidir, ancaq dəlilərin hamısı dahi deyil axı. İsa Hüseynov dahi olmaq istədi. Dahi olmadı, dəli oldu. Biz bunu deməyə niyə qorxuruq? Bilənlər bilir, qoy bilməyənlər də bilsinlər. Bu ölkədə İsa Hüseynovu bəlkə hamıdan çox mən tərifləmişəm. Onun ciddi əsərlərini həmişə sevə-sevə oxuyub, sevinə-sevinə təbliğ eləmişəm.

# "İdeal" Muğanna nəhəngliyinin isbatıdır

## Akif Aşırlı: "Əkrəm Əylisli İsa Muğannanın ölüsünə də uduzur"

**Ə.Əylislinin fikirlərinə münasibət bildirən "Şərq" qəzetinin baş redaktoru, tarix elmi üzrə fəlsəfə doktoru Akif Aşırlı qeyd edib:**

- İsa Hüseynov haqq dünyasındadır, barəsində nə yazılıb yazılmadığı sağlığında olduğu qədər o dünyada da yəqin ruhunu tərpətməz. "Məhşəri" də , "Yanar ürəyi" də , "Sazı" da , lap elə təkcə Azərbaycan ədəbi cameəsini deyil, dünya ədəbiyyatını da silkələyən "İdealı" da Muğanna nəhəngliyinin isbatıdır. İndən sonrakı sorğular, suallar, adına ədəbi tənqid deyilən səfsəfələr bu böyüklüyə xələl gətirəcək gücdə deyil.

Jurnalist Ağa Cəfərlinin Əkrəm Əylislidən aldığı müsahibəni oxuyanda ilk ağlıma gələn fikir bu oldu: Yaşı səksəni haqlayan Əkrəm Əylisli söz qumarında hələ də vurnuxur, " poz qazan"ın mahir oyunçuluğundan uzaqlaşmaq fikrində deyil. Nə qədər yazıcının yaradıcılığını qumara cəkib, pozmaq istəyib Əkrəm bəy? Anarı, mərhum Rüstəm İbrahimbəyovu, Mövlud Süleymanlını, Ramiz Rövşəni ... İsa Hüseynovun nəhəngliyini isə indi psixi pozuntuların, dəlilik sindromunun qara kölgələri altına salmaq istəyir.

Alınası iş deyil. Və bu o anlama gəlir ki, söz qumarında bilet alıb pozmaq istədiyi nəhəng Muğannanın ölüsünə də uduzur.

# "İnflyasiya göstəriciləri ciddi şəkildə artacaq"

## Rəşad Həsənov: "Rusiya-Ukrayna müharibəsinin təzyiqlərini də nəzərə almaq lazımdır"



**Dünya Bankı (WB) bu il Azərbaycanda illik inflyasiyanın 9 faiz olacağını proqnozlaşdırır. Bu barədə Dünya Bankının hesabatında bildirilib. Hesabata əsasən, 2023-cü ildə Azərbaycanda illik inflyasiya bir qədər azalaraq 6,6 faizə, 2024-cü ildə isə 6 faizə enəcək.**

Xatırladaq ki, Dünya Bankının ötən ilin oktyabr hesabatında Azərbaycanda bu il üçün illik inflyasiya 4,5 faiz, 2023-cü ildə isə 4,1 faiz səviyyəsində proqnozlaşdırılırdı.

Qeyd edək ki, Rusiya-Ukrayna münaqişəsi dünyada ciddi dəyişiklik yaradıb. Bu təsir, xüsusilə, iqtisadi sahələrdə özünü göstərir. Baş verənlər Azərbaycandan da yan ötməyib. Bəzi ekspertlər müharibənin ölkəmizdəki illik inflyasiyanın yüksəlməsinə səbəb olacağını bildirib.

**İnflyasiya ilə bağlı "Şərq"ə münasibət bildirən iqtisadçı-ekspert Rəşad Həsənov hesab edir ki, Rusiya-Ukrayna məsələləri birbaşa olaraq Azərbaycanda inflyasiyanın hədəf göstəricisinin qalxmasına gətirib çıxaracaq:** "Ən azından 2022-ci il üçün inflyasiya böyük ehtimalla 20 faiz ətrafında ola bilər. Çünki ölkəyə idxal olunan hər 100 dollarlıq məhsulun 24 dollarını biz Rusiya və Ukraynadan alırdıq. Bir sıra məhsullar üzrə ciddi asılılıq vardı. Məsələn, idxal olunan quş ətinin 71 faizini, kərə yağının hər 100 kq-nın 21 faizini Kiyevdən alırdıq. Ölkədə istehlak olunan 100 kq kərə yağının 8 kq-ı Ukraynanın payına düşürdü. Ötən il ölkəyə 220 milyon dollarlıq bitki yağı idxal oldu. 110 milyonu Rusiyanın payına düşürdü".

R.Həsənov taxılın bahalaşmasını xüsusi vurğulayıb: "Çünki Ukraynada istehsal prosesi pozulub. Ərzaq məqsədli taxılın özünün 98 faizi Rusiyadan idxal olunurdu. Dünya bazarına çıxarılan hər 100 kq-lıq taxılın 27 kq-ı Rusiya və Ukraynanın payına düşürdü. Ona görə də taxıl sürətlə bahalaşır. Təzyiqləri nəzərə almaq lazımdır. Müharibə başlamazdan əvvəl, yəni yanvar ayında Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmov açıqladı ki, biz artıq 2022-ci il ərzində 7-8 faiz, bir sözlə, hədəfin qat-qat üzərində bir inflyasiya gözləntisindəyik. Təbii ki, pandemiya və Rusiya-Ukrayna müharibəsi də bunun üzərinə gəlir. Göstəricilər ciddi şəkildə artacaq".

> "Elman Rüstəmov açıqlamışdı ki, artıq 2022-ci il ərzində 7-8 faiz, bir sözlə, hədəfin qat-qat üzərində bir inflyasiya gözləntisindəyik"

Ekspert 2023 və 2024-cü illərdəki illik inflyasiyanın azala biləcəyini də izah edib: "İnflyasiyanın aşağı səviyyəyə düşmə ehtimalı var. Çünki bu, davamlı ola bilməz. Bu gün faktiki olaraq qlobal inflyasiyanı dəstəkləyən əsas faktor pandemiya idi. Demək olar ki, pandemiyanın təsirləri artıq azalır. İqtisadi fəaliyyətlər və istehsal prosesi bərpa olunur. Bu, bazarda təşkili dəstəkləyən əsas amildir. Eyni zamanda hökumətlərin iqtisadiyyatı dəstəkləmək üçün "isti pul kütləsi"ndən istifadə etməsi, dövriyyəyə əlavə pul kütləsi daxil etmə siyasətləri nisbətən yavaşlayır. Əslində, əvəzində sərt pul-kredit siyasətlərinə keçid baş verir. Avropa Mərkəzi Bankı artıq bu istiqamətdə qərarları qəbul edir. Həmçinin gözlənilir ki, Britaniya, Yaponiya və Çin mərkəzi bankları da bənzər məsələlərə qərar versin. Bütün bunlar müəyyən mənada növbəti illərdə inflyasiya təzyiqlərini neytrallaşdıracaq.

Pul kütləsinin azalması yolu ilə tələbin aşağı salınması, istehsalın bərpası ilə təşviqin artırılması bu istiqamətdə əsas tarazlaşdırıcı rolunu oynayacaq".

**Cəmilə Əzim**

**"Rəsmi İrəvanın Fransa prezidentliyinə namizədlər - ifrat sağçı Erik Zemmur və sağ mərkəzçi Valeri Pekresslə bağlı hesablamaları özünü doğrultmadı".**

**Bu barədə siyasi şərhçi Elçin Mirzəbəyli deyib.** Politoloq bildirib ki, Nikol və yandaşları hər iki şəxsin prezidentliyə namizəd kimi Ermənistana səfərindən, Pekressin isə Azərbaycan ərazilərində zühurundan əldə etdiyi "qazanc"ı heç yerə xərcləyə bilməyəcəklər: "Bunu Ermənistanın növbəti "siyasi defoltu" kimi də qəbul etmək olar. Fransız xalqı Zemmur və Pekressə fransız qaldı... Ermənistanın siyasi hakimiyyəti Emmanuel Makronun ikinci tura keçəcəyinə ümid bəsləməyib. Çox güman ki, ikinci turda Mari Le Pen, yaxud Erik Zemmurla Valeri Pekressin yarışacağını düşünüblər. Zemmurun səfərinin təşkili isə çox güman ki, ifrat sağçıların rəğbətinin qazanılmasına xidmət edib. Digər tərəfdən, Mari Le Penin ikinci tura keçəcəyi təqdirdə Erik Zemmurun onu dəstəkləyəcəyi gözlənilən idi. Çünki Le Pen seçkilərdə məğlub olacağı təqdirdə siyasətdən gedəcəyini bəyan edib. Bu halda Zemmurun onun elektoratına sahiblənə biləcəyi ehtimalı kifayət qədər yüksəkdir. Bu ehtimalı təsdiqləyə biləcək məqamlardan biri də Erik Zemmurun öz partiyasını elan etdikdən sonra bir neçə ay ərzində 100 mindən artıq şəxsin Mari Le Pendən üz döndərmələridir. Ola bilsin ki, bu faktın özü Nikol Paşinyan və ətrafının Erik Zemmura "qarmaq atmasına" zəmin yaradıb".




# Paşinyan və yandaşları üzüldü

## Ermənistanın Fransadakı seçki hesablamaları özünü doğrultmadı

E.Mirzəbəyli vurğulayıb ki, Valeri Pekresslə bağlı məsələdə ermənilərin ciddi yanlışlığa yol verdikləri göz önündədir: "Ətrafında bu qədər ajiotaj yaradılan namizəd cəmi 5 faiz səs toplayıb və Makronun arxasınca sürünməkdən başqa seçimi qalmayıb. İkinci turda Pekressin dəstəyinin Emmanuel Makron üçün, mahiyyət etibarilə heç bir əhəmiyyəti yoxdur. Çünki ifrat sağçılara qarşı olan hər kəs, xüsusilə də solçular istisnasız olaraq, mərkəzçi Emmanuel Makrona səs verəcəklər. Bununla yanaşı, Ermənistan siyasi hakimiyyətinin seçimi və Fransada keçirilən seçkilərin nəticəsi çox vacib bir məqama nəzər salmağı zəruri edir. Belə anlaşılır ki, erməni diasporu Fransada keçirilən seçkilərə hər hansı bir formada təsir göstərmək imkanında deyil. Yaxud Ermənistanın mövqeyi, eləcə də "Qarabağ" mövzusu Fransa erməniləri üçün əhəmiyyətini itirib. Hər halda Fransa prezidentinin son davranışları da Makronun "erməni məsələsi"nə məsafəli yanaşa biləcəyi ehtimalını yaradır. Bütün hallarda aprelin 24-nü gözləyək. Seçkilərin ikinci turu "qondarma" soyqırımı gününə təsadüf edir. Bununla bağlı ritorikanın olacağı gözləniləndir".

> Belə anlaşılır ki, erməni diasporu Fransada keçirilən seçkilərə hər hansı bir formada təsir göstərmək imkanında deyil

**İsmayıl**

# Ölkəmizə qayıtmaq istəyənlər çətinliklə üzləşib

## Sabir Rüstəmxanlı Ukraynadakı səfirlikdən şikayətlənib



**"Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızla əlaqə saxlayıram və onların sənəd məsələsində nə qədər problem yaşadığını bilirəm".**

Bunu Milli Məclisin dünənki iclasında millət vəkili Sabir Rüstəmxanlı deyib. Deputat bildirib ki, onların şəxsiyyət vəsiqəsinin, pasportunun vaxtı bitir və ölkəyə qayıdıb sənədləri qaydaya salmaq məcburiyyəti yaranır: "Amma bu, belə olmamalıdır. Onlar xaricdə sənədlərini rahat dəyişməlidirlər. Biz soydaşlarımıza rahat şərait yaratmalıyıq. Azərbaycan qanunlarında xaricdə yaşayan vətəndaşlara güzəşt nəzərdə tutulsa da, bir nəfər bu güzəştdən faydalanmır. Xaricdə yaşayan azərbaycanlılar da ödənişli təhsil alır. Mən təklif edirəm ki, Dünya Azərbaycanlıları Universiteti yaradılsın".

Deputat qeyd edib ki, "ASAN xidmət" modelini səyyar formada xarici ölkələrdə təşkil etsək, yaxşı olar: "Amma bu problemi biz həll edə bilmirik. Digər tərəfdən, sərhəddə ölkəmizə qayıtmaq istəyən vətəndaşlarımız çox çətinliklərlə üzləşir. Ukraynada səfirliyimiz işləmədi, sadəcə, Xarkovda fəxri konsulumuz işlədi. Amma səfirlik nə iş gördü, heç kim bilmədi".

**İsmayıl**

# Azərbaycanda dini sahəyə çox böyük diqqət və qayğı göstərilir

## Ceyhun Məmmədov: "İlahiyyat İnstitutu ölkəmizdə savadlı dini kadrların yetişdirilməsinə ciddi töhfə verəcək"



**Çoxmillətli və çoxkonfessiyalı Azərbaycanda din-dövlət münasibətləri yüksək səviyyədədir. Ölkəmizdə milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Multikultural həyat tərzinin daha da möhkəmlənməsi üçün böyük işlər görülüb və görülür.**

Təsadüfi deyil ki, Azərbaycanın tolerantlıq modeli dünyanın bir çox universitetlərində, o cümlədən aprelin 11-də yeni binası istifadəyə verilən Azərbaycan İlahiyyat İnstitutunda da öyrənilir. Açılış mərasimində iştirak edən Prezident İlham Əliyev yeni binada yaradılan şəraitlə tanış olub. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dövlət başçısına məlumat verərək bildirdi ki, İnstitutda İlahiyyat fakültəsi, Dinşünaslıq, İslamşünaslıq, Dillər və ictimai fənlər kafedraları fəaliyyət göstərir. İnstitutda ali təhsil pillənin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə yüksəkixtisaslı kadrlar hazırlanır. Hər üç təhsil dövlət sifarişinə əsasən həyata keçirilir. İnstitutda dinşünaslıq və islamşünaslıq istiqamətlərinin müxtəlif fənləri ilə yanaşı, sosial və humanitar fənlər, həmçinin ingilis, ərəb və ibri dilləri tədris olunur. Hazırda Azərbaycan İlahiyyat İnstitutunda 277 tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 43 müəllim məşğul olur. İnstitutun müəllimləri tədris prosesi ilə yanaşı, dinşünaslıq və islamşünaslıq sahələrində elmi tədqiqatlar aparır, dərslik və monoqrafiyalar yazır, ölkədaxili və beynəlxalq elmi tədbirlərdə iştirak edirlər. Şübhəsiz, bu sahədə əldə olunan bütün uğurlar dövlət başçısı cənab İlham Əliyevin Azərbaycanda dini tədris sahəsinə göstərdiyi xüsusi diqqət və qayğının təzahürüdür. Mövzu ilə bağlı "Şərq"ə danışan millət vəkili Ceyhun Məmmədov da bildirib ki, Prezident İlham Əliyev hər zaman dini, milli-mənəvi dəyərlərimizə yüksək diqqət və qayğısı seçilib. Deputatın sözlərinə görə, bu məqam dövlət başçısının yanaşmasında da özünü açıq-aşkar göstərir...

**- Ceyhun müəllim, ölkə rəhbərliyinin dini tədris sahəsinə xüsusi həssaslığı, daim diqqət göstərməsini necə dəyərləndirirsiniz?**

- Cənab Prezident 2018-ci ildə Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında qərar verdi. Qısa müddət ərzində institut üçün xüsusi bina ayrıldı və daha sonra təmir olunaraq vətəndaşlarımızın istifadəsinə verildi. Əminliklə söyləmək olar ki, bu gün Azərbaycanda dini sahəyə çox böyük diqqət və qayğı var. İşğaldan azad olunmuş ərazilərdə - Şuşada məscid yüksək səviyyədə təmir olunur. Eyni zamanda Hadrutda, Suqovuşanda, Daşaltıda yeni məscidlər inşa olunur. Ölkəmizdəki dini icmalara da dövlət xüsusi diqqət və qayğı göstərir. Onlara hər cür yardım edilir. Bütün dini icmalar bu qayğını öz fəaliyyətlərində aydın şəkildə hiss edirlər. Təbii olaraq bu diqqət və qayğı vətəndaşlarımız tərəfindən məmnunluqla qarşılanır və yüksək qiymətləndirilir. Vurğulamaq lazımdır ki, bu siyasətin əsası ulu öndər tərəfindən qoyulub. Cənab Prezident İlham Əliyev bu siyasəti uğurla, uzaqgörənliklə davam etdirir.

> "Bütün dünya ölkələrində din hər zaman dövlətin nəzarətində saxlanılır. Eyni zamanda dini tədris elmi əsaslar üzərində öyrənilir, tədqiq olunur"

**- Azərbaycan İlahiyyat İnstitutu savadlı dini kadrların yetişdirilməsində mühüm rol oynayacaqmı?**

- Azərbaycan İlahiyyat İnstitutu ölkəmizdə savadlı dini kadrların yetişdirilməsinə ciddi töhfə verəcək. Xatırladım ki, İlahiyyat İnstitutu yaradılmamışdan öncə vətəndaşlarımız dini təhsil almaq üçün müxtəlif xarici ölkələrə üz tuturdular. Bir sıra hallarda da zərərli dini təsirlərə məruz qalırdılar. Ölkəmizdə İlahiyyat İnstitutunun yaradılması həm dini təhlükəsizliyin təmin olunmasına, həm dövlət-din münasibətlərinin yüksək səviyyədə qorunmasına, tənzimlənməsinə öz töhfəsini verəcək. Biz bunu cənab Prezidentin siyasətində aydın görürük. Milli kadrların yetişdirilməsi prioritet olaraq bizim qarşımızda qoyulub. Bu vəzifənin yerinə yetirilməsi istiqamətində Azərbaycan İlahiyyat İnstitutu mühüm rol oynayır.

**- Dini təhsilin dövlət nəzarətində olması və elmi əsaslarla aparılması nə qədər mühümdür?**

- Dini təhsilin dövlət nəzarətində olması çox önəmli və əhəmiyyətlidir. Din çox həssas məsələdir. Bütün dünya ölkələrində din hər zaman dövlətin nəzarətində saxlanılır. Eyni zamanda dini tədris elmi əsaslar üzərində öyrənilir, tədqiq olunur. Dinin tədrisində elmi metodlardan geniş istifadə edilir. Din elə bir sahədir ki, burada elmi əsaslarla yanaşma xüsusi önəm daşıyır. Gər dini sahəni düzgün tənzimləmək, dini təhlükəsizliyimizi təmin etmək, qorumaq istəyiriksə, birmənalı olaraq dini təhsil dövlətin nəzarətində olmalıdır. Dünyada baş verən ümumi proseslərə nəzər yetirəndə din sahəsinin nə qədər həssas və vacib olduğunun şahidi oluruq. Azərbaycan Prezidenti bu istiqamətdə çox uğurlu siyasət həyata keçirir. Bu proses ölkəmizdə dini təhsilin inkişafına, daha da irəli getməsinə birmənalı müsbət təsir göstərəcək".

**İsmayıl Qocayev**



**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirə keçirilib. Ölkə başçısı bir çox məsələlərə toxunub.**

Prezident qeyd edib ki, postmünaqişə dövrünün nəticələri, birinci ilin nəticələri deməyə əsas verir ki, qarşımızda duran bütün vəzifələr icra edilmişdir: "Biz, ilk növbədə, beynəlxalq təşkilatlarla öz təmaslarımızı, fəal əməkdaşlığımızı davam etdirmişik və dünyanın aparıcı beynəlxalq təşkilatları yeni reallıqları qəbul etmişlər".

# Postmüharibə dövründə də uğurlu işlər görülüb

## Azərbaycan eyni zamanda bir çox ölkələrə ciddi dəstək verib

**Ölkə başçısının çıxışını yüksək qiymətləndirən Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, millət vəkili Asim Mollazadə görülən işlərin müsbət nəticə verdiyini bildirib:**

"Mənə elə gəlir ki, Azərbaycan çox çətin dönəmdə postmüharibə və pandemiya dövründə həm çox böyük bir sosial layihələri həyata keçirdi. İlk növbədə müharibə əlillərini, şəhid ailələrini sosial cəhətdən dəstəklədi.

Bununla yanaşı, əhali üçün pandemiya dövründə vəziyyəti stabilləşdirməklə əlaqədar ciddi proqramlar həyata keçirilib. Bu istiqamətdə aparılan işlər ölkəmizi çətin problemləri dəf etməyə imkan yaradıb".

Millət vəkili Azərbaycanın daim başqa ölkələrə yardım etdiyini də xüsusi vurğulayıb:

"Həmçinin dünyada bu istiqamətdə bir çox ölkələrdə zəruri işlər görülməyib, zəif ölkələrə dəstək verilməyib. Azərbaycan BMT-nin tribunasından istifadə edərək COVİD-lə bağlı mübarizədə səylərini reallaşdırıb. Bir çox ölkəyə ciddi dəstək verib. Lakin daha zəngin və böyük dövlətlər bunu etməyiblər.

Bu, təəssüf doğurur. Azərbaycan həmişə humanist prinsiplərdən irəli gələn siyasət yürüdür. Dünyanın bir çox yerində köməyə ehtiyacı olanlara dəstəyimizi göstərmişik".

**Cəmilə Əzim**

## Bərdədə güclü külək dağıntılar yaradıb

### Ağac evin üstünə aşıb, nəticədə 3 nəfər xəsarət alıb



**Bərdə rayonunda güclü külək dağıntılar yaradıb, irigövdəli ağac evin üstünə aşıb. Nəticədə 3 nəfər xəsarət alıb.**

Trend-in yerli bürosu xəbər verir ki, rayonun bir neçə kəndində fərdi yaşayış evlərinə ciddi ziyan dəyib, habelə, şəhərin Heydər Əliyev prospektində yerləşən fərdi yaşayış evinun üzərinə irigövdəli ağac aşıb.

Bir neçə saat davam edən güclü külək elektrik təsərrüfatına da ziyan vurub. Elektrik dirəkləri aşıb, xətlər isə qırılıb. Nəticədə rayona verilən elektrik enerjisində fasilələr yaranıb.

Bundan başqa, irigövdəli ağaclar və onların budaqları küləyin təsirindən qırılıb. Nəticədə minik avtomobillərinə də ziyan dəyib.

Bərdə Rayon İcra Hakimiyyətinin Fövqəladə hallar komissiyasından bildirilib ki, dağıntılarla bağlı araşdırma aparılır, fəsadlar aradan qaldırılır. Qeydiyyat işləri başa catdıqdan sonra təmir və bərpa işlərinə başlanılacaq. Güclü külək həmçinin Tərtər şəhər 2 saylı tam orta məktəbin dam örtüyünü atıb. Külək, həmçinin, şəhərin Heydər Əliyev prospektində elektrik dirəklərini aşırıb. S.Vurğun küçəsində isə ağac Atayev Elşən Sultan oğluna məxsus evin üzərinə düşüb.

# Putin artıq nə edəcəyini bilmir

> Kiyev bu məqamdan sonra Rusiyaya heç bir ciddi güzəştə getməyəcək



**Rusiya Prezidenti Vladimir Putin növbəti dəfə Ukrayna ilə aparılan müharibədən danışıb. Ukrayna ərazisində aparılan hərbi əməliyyatlara haqq qazandıran Kreml rəhbəri Moskvanın öz məqsəd və hədəflərinin mütləq yerinə yetiriləcəyini bildirib.**

O, Rusiya Ordusunun Ukraynada cəsarətli fəaliyyət göstərdiyini qeyd edib: "Ukraynada yetişdirilən antirusiya qüvvələrlə toqquşma qaçılmaz idi, bu, sadəcə vaxt məsələsi idi". Putin Ukraynadakı xüsusi əməliyyatı düzgün addım adlandırıb: "Ukraynadakı xüsusi əməliyyat düzgün addımdır. Başqa seçimimiz yox idi. Məqsədimizə nail olacağıq". Putin Kiyevin Minsk razılaşmalarının icrasından açıq şəkildə imtina etdiyini xatırladıb. Rusiya rəhbəri müasir dünyada Qərbin Rusiyanı təcrid edə bilməyəcəyini diqqətə çatdırıb.

**Putinin açıqlamasını "Şərq"ə dəyərləndirən politoloq Azər Qasımov deyib ki, Kreml başçısının sərt ritorikası özünə təsəlli verməkdən başqa bir şey deyil. Analitikin fikrincə, Rusiya Ukraynaya hücum etdiyi gün məğlub olmuşdu:** "Heç bir sağlam düşüncəli dövlət başçısı bu səhvi etməzdi. Ancaq Putin buna getdi. Qərbi günahlandırmaq avtoritar rejimlərin adətidir. Müharibənin bu dövründən sonra böyük itkilər hesabına da olsa, kiçik "qələbə" Putinə hava-su kimi lazımdır. Onun "məqsədimizə nail olacağıq" ifadəsi təkcə Ukrayna və Rusiya xalqları deyil, dünya üçün təhlükəsizliyin təhdid edilməsi anlamına gəlir. Putin sözün həqiqi mənasında artıq nə edəcəyini bilmir. Onun istəkləri reallıq ilə üst-üstə düşmür. Kütləvi qırğınlar hesabına da olsa öz ambisiyalarını yerinə yetirməyə cəhd göstərir. Hesab edirəm, Kiyev bu məqamdan sonra Rusiyaya heç bir ciddi güzəştə getməyəcək. Əksinə, Ukrayna hökuməti öz tələblərində daha israrlı olduğunu ortaya qoyacaq".

**İsmayıl Qocayev**



**Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan XİN-ə cavab verib. "Ermənistan XİN-in növbəti əsassız, hüquqazidd, düşmənçilik dolu bəyanatını rədd edir, iki dövlət arasında normallaşma addımlarının atılması qərarları verildiyi bir vaxtda Ermənistan tərəfinin dağıdıcı mövqeyini qətiyyətlə qınayırıq".**

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin açıqlamasında əksini tapıb.

"1 milyona yaxın azərbaycanlını etnik təmizləməyə məruz qoyaraq, bu insanların 30 ilə yaxın fundamental hüquqlarını kobudcasına pozan, hərbi təcavüz zamanı çoxsaylı hərbi cinayətlər törədən, o cümlədən 613 mülki şəxsi Xocalıda bir gecədə vəhşicəsinə qətlə yetirən, hələ 90-cı illərin əvvəllərində itkin düşən və bir hissəsinin kütləvi məzarlıqları indi tapılan 4000-ə yaxın azərbaycanlının taleyi ilə bağlı cavabdehlik daşıyan və törətdiyi çoxsaylı cinayətlərə görə bugünədək məsuliyyətdən yayınan Ermənistan tərəfi hansı əsasla kütləvi qətldən, etnik təmizləmədən danışır?! Ermənistan XİN-in Azərbaycan ərazisində separatçılığı təşviq edən, beynəlxalq hüquqa zidd olaraq digər dövlətin daxili işlərinə müdaxilə olan, bölgədə sülh quruculuğu səylərinə xələl gətirən bu bəyanatı qarşı tərəfin əsl niyyətinin normallaşma və sülh şəraitində birgə yaşayış olmadığını nümayiş etdirir. Ermənistanın seçimindən asılı olmayaraq, Azərbaycan öhdəliklərinə və beynəlxalq hüquqa uyğun olaraq, beynəlxalq sərhədləri çərçivəsində inkişaf və tərəqqiyə doğru addımlarını davam etdirəcəkdir", - nazirlikdən bildirilib.

# "Brüssel danışıqları Ermənistan cəmiyyətində ciddi şok yaradıb"

## Abutalıb Səmədov: "Mübarizə bitməyib, İrəvan mane olmağa davam edəcək"

**Azərbaycan və Ermənistan rəhbərlərinin Brüssel görüşündən sonra Ermənistan tərəfinin yenidən bu cür addım atmasını "Şərq"ə şərh edən Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov bildirib ki, Brüssel danışıqları Ermənistan cəmiyyətində çox ciddi şok yaradıb:**

"Danışıqlardan dərhal sonra Minsk qrupunun fəaliyyətinin dayandırılması haqqında da bəyanat verildi. Bu, Ermənistan cəmiyyəti üçün ikinci zərbə oldu. Çünki onlar bütün ümidlərini Minsk qrupuna və orada ermənipərəst mövqedən çıxış edən ABŞ və Fransaya bağlamışdılar. Bu vəziyyətdə Ermənistan çıxış yolu axtarır, sülh danışıqlarına getmək məcburiyyətindədir. Şarl Mişel Paşinyanı inandırdı ki, Qarabağ məsələsinin sülh sazişinə salınması qeyri-mümkündür. Amma Ermənistanın əsas tələbi bu idi. Sülh sazişi ayrıca müzakirə olunmalıdır. Qarabağa status vermək isə tamamilə başqa məsələdir və Ermənistan hələ bundan əl çəkmək fikrində deyil. Görə də bu mövzuda ona müəyyən dəstək verir".

> "Danışıqlardan dərhal sonra Minsk qrupunun fəaliyyətinin dayandırılması haqqında da bəyanat verildi"

**A.Səmədovun sözlərinə görə, bütün bunlar Ermənistan hakimiyyətinin cəmiyyətin fikrini yayındırmaq cəhdləridir:**

"Brüssel danışıqlarının nəticələrini qəbul etmədiklərinə görə, Minsk qrupunun ləğvi şokunu yaşadıqlarına və Sergey Lavrovun kəskin bəyanatına görə, Ermənistan cəmiyyəti çaş-baş vəziyyətdədir. Görünür, ona görə də bu durumda rəsmi İrəvan cəmiyyətə müəyyən mesajlar vermək ehtiyacı hiss edir. Müxtəlif məsələlərdə Azərbaycanı günahlandırmağa çalışır, böhtanlar atırlar. Bütün bunlar daxili auditoriya üçün hesablanmış addımlardır. Məqsəd cəmiyyətlərinin fikirlərini əsas problemdən yayındırmaqdır. Əsas problemlər də kifayət qədər böyük və ağırdır".

Ümid edirəm ki, Azərbaycan bu danışıqların nəticəsində ciddi uğurlar qazana bilər. Ancaq mübarizə bitməyib. Ermənistan manəə olmağa davam edəcək.

Rusiya ilə Avropa İttifaqı arasındakı ziddiyyətlər artıq aydın görünür və Rusiya əlindən gələni edəcək ki, Aİ-ni vasitəçi kimi bu məsələdən uzaqlaşdırsın. Tamamilə istisna olunmayıb ki, bir gün Moskvada yenidən bir sülh sazişinin imzalanmasına cəhd göstərilməsin".

**Çimnaz Şahlar**

# Ümidlərimiz böyükdür, amma...

## Məhkəmə sistemində vəziyyət düzəlməsə, aşağı faizli kreditlər olmayacaq



**Kreditlərin illik faiz dərəcələrinin yüksək olması məsələsi aktualdır. Kredit götürənlər, o cümlədən sahibkarlar daim faiz dərəcələrinin çoxluğundan şikayətlənirlər. Milli Məclisin iclasında deputat Siyavuş Novruzov deyib ki, Azərbaycanda kreditlər birrəqəmli faizlərlə ödənilməlidir.**

"Ümid edirəm, yeni tərkib ölkənin pul-kredit sistemini uğurla həyata keçirəcək".

**S.Novruzovun təklifini "Şərq"ə dəyərləndirən bank məsələləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənovun sözlərinə görə, kredit faizlərinin yüksəkliyinin 3 səbəbi var:**

"Birincisi, sığortalanan bank əmanətləri üzrə faiz dərəcəsi 12 faizdir ki, bu da çoxdur. Banklar 10-12 faiz arası əmanət götürür, özləri də başqalarına kredit verir. Üstünə faiz qoyur, o faizə xərclər və gəlirlər də daxildir.

Bank əgər 12 faizlə əmanət qəbul edirsə, necə birrəqəmli faizlə kreditlər verə bilər? Bu, mümkün deyil. Əmanətlər üzrə faizlər yüksəkdir, burdan başlamaq lazımdır.

İkincisi, bankların vəsaiti təkcə əmanətlər deyil, eləcə də AMB-dən götürülən kreditlərdir. AMB uçot dərəcəsi ilə banklara kredit verməlidir. Uçot dərəcəsi daim 6-7 faiz arasında dəyişir. AMB 6-7 faizlə banklara kredit ayırsaydı, onda bankların da faiz dərəcələri aşağı düşərdi. Amma AMB bütün banklara belə faiz söyləmir. Ümumiyyətlə, AMB əksər banka kredit vermir. Bu sahədə inhisarçılıq var.

Üçüncüsü, banklar kredit verəndə, bir çox hallarda kredit qayıtmır, problem yaranır, məhkəməyə müraciət ünvanlanır. Məhkəmələrdə, icra şöbələrində həm rəsmi xərclər, həm də korrupsiya mövcuddur. Banklar faizi çox edirlər ki, kredit götürənlərin verdiyi pulla xərclərini bağlasınlar.

Məhkəmə sistemində vəziyyət düzəlməsə, aşağı faizli kreditlər olmayacaq.

Yeni sədr şəffaf şəkildə, qanunla işləsə müsbət irəliləyişlər əldə etmək olar. Ümidlərimiz böyükdür".

**Aygün Tahir**

# Şahbaz Şərifin erası başlayır

## Pakistanın Azərbaycana və Türkiyəyə qarşı siyasəti dəyişməyəcək



**Pakistan parlamentariləri Müsəlman Liqasına mənsub olan Mian Məhəmməd Şahbaz Şərifi yeni baş nazir seçiblər.**

Parlamentin etimadsızlıq səsverməsi nəticəsində sabiq baş nazir İmran Xanın əleyhinə 174 parlament üzvü səs verib. Şahbaz Şərifi əvvəllər üç dəfə Pakistanın baş naziri vəzifəsində çalışıb. O, Pakistan Müslüman Liqasının lideri olmamışdan əvvəl uzun illər Pəncab əyalətində baş nazir vəzifəsində çalışıb. Şərifin spesifik cəhəti tez-tez inqilabi şeirlərdən sitat gətirməsidir. Sələflərindən fərqli olaraq rəqibləri ilə ortaq məxrəcə gələ bilən, həm ordu, həm də müxalifətlə dil tapa bilən siyasətçi kimi tanınır. Şərifi baş nazir postunda gözləyən ən mühüm həlli vacib məsələlər heç şübhəsiz, iqtisadi və təhlükəsizlik problemləridir. Məsələ ondadır ki, 1947-ci ildə müstəqilliyini elan edən Pakistanda bu günə qədər dörd dəfə hərbi çevriliş və eyni sayda uğursuz hərbi çevriliş cəhdi olub. Çevrilişlər məhz Şərif ailəsinə qarşı olub. Yəni Şahbaz Şərifin xarici siyasətdə və ya orduya qarşı kiçik bir səhvi onun sonunu gətirə bilər. İmran Xan ölkədə dərhal parlament seçkilərinin keçirilməsini tələb edir. O, baş nazir seçilməyəcəyi təqdirdə seçkilərin nəticəsini tanımayacağını bildirmişdi. Bunun ardınca isə İmran Xanın rəhbəri olduğu Təhriki İnsaf Partiyası yeni baş nazir seçkisinə az qalmış parlamentdən çıxmışdı.

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, İmran Xanı vaxtilə hakimiyyətə məhz ordu gətirib. Ekspertin sözlərinə görə, Xan orduya və onu dəstəkləyən elektoratlarına arxalanır:** ”İmran Xan gücünü göstərmək üçün bir neçə gün öncə paytaxt İslamabadda minlərlə tərəfdarlarının iştirakı ilə dəstək mitinqi keçirdi. O, mövcud vəziyyətlə barışmayacaq və Şahbaz Şərifin ilk yanlış qərarını fürsətə çevirməyə çalışacaq. Pakistanda bu günə qədər hakimiyyətdə olan şəxslərin bir çoxu korrupsiya ittihamları ilə üzləşib. Əksər baş nazirlər korrupsiya ittihamları ilə həbs olunublar. Şahbaz Şərifin mənsub olduğu ailə üzvləri də bu ittihamlara məruz qalıb. Şərifin böyük qardaşı Nəvaz Şərif 2017-ci ildə korrupsiya ittihamı ilə mühakimə olunub. Bu mənada İmran Xan Şərifin qardaşı kimi səhv etməsini gözləyə bilər. Çünki Xan özündən öncəki hakimiyyətlərdən fərqli olaraq korrupsiyaya görə deyil, xarici və təhlükəsizlik siyasətinə görə hakimiyyətdən uzaqlaşdırılıb. İmran Xanın Çinlə və Rusiya ilə yaxınlaşması siyasi və hərbi elitanın narazılığına səbəb olmuşdu. Ancaq Şahbaz Şərifin də Çinlə münasibətləri korlayacağı inandırıcı deyil. Çünki Pakistan İmran Xandan əvvəl də Çinlə sıx əlaqələr qurub. Əsas səbəb də məhz Hindistan faktorudur. Hindistan məsələsində Pakistan və Çin ortaq maraqlar ilə hərəkət edir. Mümkündür ki, bu, Şahbaz Şərifin hakimiyyəti zamanı da davam edəcək”.

*Ekspert rəsmi İslamabadın Bakı və Ankara ilə münasibətlərinin dəyişib-dəyişməyəcəyindən də danışıb:* ”Bu gün olmasa da, gec-tez Pakistanda İmran Xan dövrü bitəcəkdi. İmran Xandan sonra hakimiyyətə kimin gəlməsindən asılı olmayaraq Pakistanın xarici siyasətində bəzi ölkələrə qarşı kəskin dəyişikliklər olmayacaq. Pakistanın iqtisadi və xarici siyasətinin Şərif dövründə Azərbaycan və Türkiyəyə qarşı dəyişəcəyi az proqnozlaşdırılır. Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şahbaz Şərifi Pakistanın yeni baş naziri seçilməsi münasibətilə təbrik edib. Bu, özlüyündə rəsmi Ankaranın Şahbaz Şərif hakimiyyətini tanıdığını, bundan sonra da iki ölkə arasında münasibətlərin davam edəcəyini göstərir. Azərbaycana gəldikdə isə rəsmi Bakının da Ankaradan fərqli mövqe sərgiləyəcəyini düşünmürəm”.

**İsmayıl Qocayev**




**Rusiya xarici borcunu faktiki olaraq ödəyə bilmir və istiqraz sahiblərinə dollar ödənişi əvəzinə rubl ödənişləri təklif edib. Bu barədə ”Standard & Poor's” reytinq agentliyi məlumat yayıb. Agentlik tərəfindən bildirilib ki, Rusiya aprelin 4-də vaxtı başa çatan iki dollarlıq istiqraz üçün rublla ödəniş etməyə cəhd edib, lakin kreditorlar bu təklifdən imtina ediblər.**

# Kreml ciddi sanksiyalardan əziyyət çəkir

## İndiyə qədər heç bir dövlət Rusiyanın vəziyyətinə düşməmişdi

Analitiklər bunu ”seçilmiş defolt” olaraq qiymətləndirib. ”Rusiya Dəmir Yolları” ödənişi həyata keçirməyə çalışsa da, özünə qarşı tətbiq edilən sanksiyalara görə bunu edə bilməyib. Qeyd edilib ki, yaxın zamanda Rusiyanın öhdəliklərini yerinə yetirə bilməyəcəyindən Federasiyanın defolt elan edəcəyi gözlənilir. Moskvanın kapital və faiz ödənişlərini həyata keçirmək üçün aprelin 4-dən etibarən 30 günlük vaxtı var. Lakin Qərbin tətbiq etdiyi sanksiyalar da nəzərə alınarsa, bu müddətdə borcun ödənilməsi real görünmür. Onu da qeyd edək ki, Qərbin Ukraynaya müdaxiləsindən sonra tətbiq etdiyi sanksiyalar nəticəsində Rusiya öz valyuta ehtiyatlarının təxminən 315 milyard dollarını əldə edə bilmir. Ötən həftəyə qədər ABŞ Rusiyaya dondurulmuş aktivlərinin bir hissəsini müəyyən investorlara dollarla ödəmək üçün istifadə etməyə icazə verdi. Lakin ABŞ Xəzinədarlığı o vaxtdan bəri Rusiya Prezidenti Vladimir Putinə təzyiqi artırmaq üçün ölkənin Amerika banklarındakı ehtiyatlarına çıxışını əngəlləyib.

**İqtisadçı Pərviz Heydərov ”Şərq”ə açıqlamasında bildirib ki, ”Rusiya defolt oldu” iddiası ciddi məqamdır və bununla bağlı konkret fikir söyləmək çətindir. Ekspert diqqətə çatdırıb ki, Rusiya ciddi sanksiyalar altındadır və maliyyə cəhətdən iflic vəziyyətdədir:** ”Ölkənin xaricdəki valyuta ehtiyatlarına sanksiyalar tətbiq olunub. Qərb ölkələri ilə iqtisadi, ticari, yəni maliyyə ilə bağlı bütün əlaqələr dondurulub. Rusiya bunlardan istifadə etməkdən məhrum edilib. Ona görə də Rusiyanın hansısa iqtisadi subyektinin borcunu ödəyə bilməməsini ”defolt” kimi təqdim edirlər. Çünki geri ödənişi həyata keçirmək mümkün deyil. Amma bu prosesi birbaşa defolt adlandırmaq olmur. Defolt adətən o zaman baş verir ki, borclu, ödənişçi müvafiq maliyyə imkanlarına malik olmur və iflasa uğrayır. Bu səbəbdən üzərinə düşən öhdəliyi yerinə yetirə bilmir. Ancaq Rusiya variantında vəziyyət fərqlidir. Bu ölkə məhz sanksiyalara görə maliyyə imkanlarından məhrum qalıb. Nəticədə iqtisadi subyektlərin, təsərrüfat qurumlarının kənara çıxışında, ödənişlərində problemlər yaranıb. Bütün hesabları dondurulub. Belə olan təqdirdə ödənişin icra olunmamasını həqiqi ”defolt” hesab etmək bir qədər çətindir. Çünki ortada pul, maliyyə var, amma ödənişi həyata keçirmək imkanları yoxdur. Bu, tamamilə yeni bir formadır. İndiyədək heç bir ölkədə bənzər hal müşahidə olunmayıb”.

**“Ortada pul, maliyyə var, amma ödənişi həyata keçirmək imkanları yoxdur”**

**İsmayıl Qocayev**

# Maarifləndirmə işini artırmaq lazımdır

## Deputat: ”Nöqsanların qarşısının alınması bələdiyyə üzvləri və bələdiyyə sədrlərinin məsuliyyətindən asılıdır”



**”Azərbaycanda bələdiyyə institutu çətin bir şəraitdə qurulub və fəaliyyətində uğurlu tərəfləri ilə yanaşı, uğursuz tərəflər də mövcuddur. Bu uğursuzluqların aradan qaldırılması üçün müəyyən zamana ehtiyac var.”**

Milli Məclisin deputatı Könül Nurullayeva Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsilə bağlı fikirlərini bölüşərkən belə deyib. Bildirib ki, Bələdiyyə fəaliyyətinin səmərəsi, ümumiyyətlə, vətəndaşlara keyfiyyətli xidmətlərin göstərilməsi üçün çox güclü, dayanıqlı maliyyə və iqtisadi potensialı, gəlir mənbələri olmalıdır. Deputat bələdiyyə sahəsindəki bəzi problemlərə də toxunub:

”Bu problemlər həll olunmadığı təqdirdə, biz bələdiyyələrin hər hansı inkişafından və fəaliyyətinin səmərəsinin artırılmasından danışa bilmərik. Bələdiyyə vergilərinin ödənilməsi müəyyən qaydada Vergi Məcəlləsi ilə tənzimlənir. Ancaq bələdiyyə ödənişlərini ödəməyənlərə qarşı təsir mexanizminin olmaması bələdiyyələrin maliyyəsinə ciddi şəkildə ziyan vurur. Buna görə də bələdiyyə ödənişlərinin ödənilməsini təmin etməyə yönəlmiş mexanizm müəyyənləşdirilməli və tətbiq olunmalıdır”.

K.Nurullayeva bəzi bələdiyyələr tərəfindən tədiyyə bildirişlərinin və yaranmış borclar haqqında xəbərdarlıqların ödəyicilərə ”sms” vasitəsilə göndərilməsini müsbət hal kimi dəyərləndirib. Qeyd edib ki, bütün bələdiyyələrin də bu iş üsulundan istifadə etməsi məqsədəuyğun olardı.

”Bələdiyyələrin fəaliyyətinin canlandırılması, nöqsanların qarşısının alınmasının ilk növbədə bələdiyyə üzvlərinin və daha çox bələdiyyə sədrlərinin məsuliyyətindən asılıdır” deyən millət vəkili hesab edir ki, bəzi bələdiyyə sədrlərinin cəza alması, məhkəmələr qarşısında cavab verməsi də məhz məsuliyyətsizlikdən, bələdiyyələrdə aşkarlıq və hesabatlılığın təmin olunmamasından irəli gəlir: ”Hesabatdan da görünür ki, Ədliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq onlara korrupsiyaya qarşı təlimlər keçirilməsinə, habelə maarifləndirici materialların hazırlanmasına baxmayaraq, bəzi vəzifəli şəxslər yenə də bu növ cinayətləri törətməkdən çəkinmirlər. Fikrimcə, bu sahədə maarifləndirmə daha da artırılmalıdır.”

Könül Nurullayeva bələdiyyə sahəsində Türkiyə təcrübəsini xatırladıb. Bildirib ki, yerli özünüidarəetmə sahəsində qardaş ölkənin bələdiyyələri ilə aparılan görüşlər, təcrübə mübadiləsi həmin bələdiyyələrin müsbət təcrübəsinin öyrənilməsində və təbiqində mühüm rol oynayır:

”Hesab edirəm ki, xarici ölkələrin yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi və təbiqi üçün belə görüşlər və proqramlar davamlı şəkildə həyata keçirilməlidir.”

Bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək və metodoloji yardım haqqında vəsaitlərin hazırlanmasını da müsbət dəyərləndirən K.Nurullayeva maarifləndirici dəstək tədbirlərinin davam etdirilməsini vacib hesab edir.

# Qəza baş verdikdə peşmanlıq fayda vermir

## Bütün iş yerlərində təhlükəsiz əmək şəraiti yaradılmalıdır

**Baş nazir Əli Əsədov əhalinin kütləvi toplaşdığı bütün növ xidmət və ticarət obyektlərində baş verə biləcək fövqəladə hal, qəza risklərinin müəyyən edilməsi və çatışmazlıqların aşkarlanması və aradan qaldırılması işinin təşkilini təmin etmək məqsədilə sərəncam imzalayıb.**

Sərəncamda Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 6 ay müddətində Azərbaycan Respublikası Energetika Nazirliyinin, Bakı Şəhər İcra Hakimiyyətinin (respublikanın şəhər və rayon mərkəzlərinə münasibətdə rayon (şəhər) icra hakimiyyəti orqanlarının nümayəndələri), Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ”Azəriqaz” İstehsalat Birliyinin və ”Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri ilə birlikdə ölkə üzrə insanların kütləvi toplaşdığı bütün növ obyektlərdə yanğın, radiasiya və texniki təhlükəsizlik qaydalarına düzgün riayət edilməsi ilə bağlı yoxlamalar aparılması tapşırılır. ”Bütün növ obyektlər”ə insanların müvəqqəti yaşayışı üçün nəzərdə tutulmuş binalar, o cümlədən yataqxanalar, mehmanxanalar, sanatoriyalar, istirahət evləri, kempinqlər, motellər və sair, mülkiyyət formasından asılı olmayaraq, bütün sosial təyinatlı obyektlər, xəstəxanalar, təhsil müəssisələri, tamaşa və mədəni-marif təşkilatlarının binaları (teatrlar, kinoteatrlar, konsert zalları, muzeylər və s.), əhaliyə xidmət göstərən bütün ictimai obyektlər (ticarət mərkəzləri, kafelər, restoranlar və s.) daxildir. Sərəncamdan irəli gələrək Fövqəladə Hallar Nazirliyi aparılan yoxlamaların gedişatı barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə mütəmadi olaraq məlumat verməlidir. Sərəncam imzalandığı gündən qüvvədədir.

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev ”Şərq”ə açıqlamasında Baş nazirin sərəncamının zamanın tələbi olduğunu bildirdi:**

- Paytaxtda baş vermiş dəhşətli hadisə (”Location” gecə klubundakı məlum partlayış) iş yerlərində, ümumiyyətlə, isə ictimai-iaşə obyektlərində, insanların daha çox cəmləşdiyi məkanlarda təhlükəsizlik tədbirlərinin nə qədər vacib olduğunu bir daha göstərdi. Təbii ki, insanlarda həm təəssüf, həm də narahatlıq doğurdu. Ona görə hesab edirəm ki, bu sərəncam təqdirəlayiqdir. İş yerlərində sərəncamda göstərilən qurumlar tərəfindən yoxlamalar aparılacaq. Nöqsanlar və çatışmazlıqlarla bağlı zəruri tədbirlər görüləcək. Bu da öz növbəsində insanların rahat, sağlam və təhlükəsizliyi üçündür. Qeyd edim ki, ümumiyyətlə, bütün iş yerlərində məsul şəxslər tərəfindən təhlükəsiz əmək şəraiti yaradılmalıdır. İşçilərin həyat və sağlamlığı üçün heç bir təhlükə riski olmamalıdır.



*“Qaz sızması, kənar qoşulmalar, qaz qurğuları və avadanlıqlarının texniki sazlığı daim yoxlanmalıdır”*

**E.Nurəliyev təyinatlı obyektlər üçün təhlükəsizliklə bağlı tövsiyələrini də qeyd etdi:**

- Obyektlərdə qaz təsərrüfatına dair təhlükəsizlik tədbirləri çərçivəsində cavabdeh şəxslər tərəfindən qaz xətlərinə mütəmadi baxış keçirilməlidir. Qaz sızması, kənar qoşulmalar, qaz qurğuları və avadanlıqlarının texniki sazlığı daim yoxlanmalıdır. Obyektdə yarana biləcək fövqəladə hallarla bağlı təhlükə riskləri nəzərə alınmaqla elektrik xətlərinə texniki baxış keçirilməlidir. Digər təhlükə riskləri nəzərə alınmaqla yanğın təhlükəsizliyi, texniki təhlükəsizlik və işçilərin əməyin mühafizəsi qaydalarına riayət edilməsinə ciddi nəzarət təşkil edilməlidir. Obyekt sahibləri, rəhbər şəxslər vaxt itirmədən bu vacib işləri həyata keçirsinlər. Hər hansı qəza baş verdikdə peşmanlıq artıq fayda vermir.

**Məlahət Rzayeva**

# "Rusiya savaşı uzada bilər"

## Tural İrfan: “Yəni İran-İraq döyüşü kimi uzansın, axırda məcbur olub, Ukrayna Rusiyanın şərtlərini qəbul etsin, ona təslim olsun”



**Rusiya Prezidenti Vladimir Putin Amur vilayətində ”Vostoçnı” kosmodromunun tikintisi ilə tanışlıq zamanı bildirib ki, Rusiyanın Ukraynadakı anti-Rusiya qüvvələrlə toqquşması qaçılmaz idi:**

”Bu gün bizim zabitlərimiz Ukraynada, Donbassda xüsusi hərbi əməliyyatlarda iştirak edir. Əminəm ki, Donbassın müdafiəsi üzrə əməliyyatın məqsədlərinə nail olacağıq”.

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Tural İrfan ”Şərq”ə açıqlamasında bildirib ki, Rusiyanın Ukraynada məğlubiyyəti qaçılmazdır:**

”Sadəcə olaraq uduzduğunu ört-basdır etməkdən, qalib görüntüsü yaratmaqdan ötrü təbii ki, Rusiya prezidenti və siyasətçiləri əllərindən gələni edirlər. Həmçinin onlardan biri Donbassla bağlı müharibənin qaçılmaz olduğunu deyərək özlərinə haqq qazandırırlar. Şübhəsiz ki, bu, qeyri-səmimi bir açıqlamadır. Təbii ki, Azərbaycan Qarabağla bağlı 30 ilə yaxın danışıqlar aparmasına baxmayaraq effekt vermədiyini bildikdən sonra hərbi əməliyyatlara başlayıb. Amma heç də Ukrayna-Rusiya məsələsi bu cür olmayıb. Nəinki 30 il, heç 3 ay da danışıqlar aparılmayıb. Rusiya heç bir sülh yoluna getmədən rəsmi Ukrayna xalqına qarşı hegemonluq nümayiş etdirib. Təbii ki, Rusiyanın məğlubiyyətini büruzə verən amillərdən biri də onların geri çəkilərkən yol verdikləri qırğınlardır. Rusiyanın kifayət qədər hərbi itkiləri var və bu, Ukraynadan qat-qat çoxdur. Ölüm sayını bərabərləşdirmək üçün qarşı tərəfin də dinc əhalisinə qarşı soyqırım həyata keçirirlər. Ümumiyyətlə, Putin ”çekist” taktikası ilə iş görür. Bəzi açıqlanan və açıqlanmayan mövqe arasında çaşbaşlıq yaradaraq, manevrlər edir. Sağ göstərib, sol vurur. O açıqlamalara müvafiq olaraq hansısa qənaətə gəlməyi düzgün hesab etmirəm. Hər şey reallığa baxılıb, qiymətləndirilməlidir. Həqiqət də ondan ibarətdir ki, artıq Rusiyanın yenilməsi yekunlaşmaq üzrədir. Hər bir halda rəsmi Moskva istər Donbassda, istərsə də digər ərazilərdə baş verən hadisələrlə bağlı qalib görkəmi yaratmaq və savaşın nəticələrindən xeyir götürmək istəyir. Həmişəki kimi əzələ nümayişi etdirirlər. Hətta bir qədər əvvəl nüvə silahı ilə təhdid ediblər. Rusiyanın əvvəlcədən proqnozlaşdırmadığı sonluq gəlib, çatıb. O, Ukraynaya qarşı müharibə elan etdikdə Avropanın və bir neçə dövlətin rəsmi Kiyevin yanında olacağını düşünüb. Amma bu gün gerçəklik başqadır. Artıq demək olar ki, Rusiyanın müttəfiqləri, ona rəğbəti olan dövlətlər də Ukraynanın yanındadır. Kremlin həm siyasi, həm də ictimai nüfuzu, ümumiyyətlə, dünyadakı hegemonluğu da artıq bir sıfır səviyyəsinə enir. Düşünürəm ki, müharibənin sonunda Rusiya savaşı uzatmaqla nəyəsə nail olmağa çalışacaq. Çünki Ukrayna üçün müharibənin davam etməsi o qədər də sərf etmir. Şübhəsiz ki, onun dayağı daha çoxdur. Avropa, Amerika Ukraynaya dəstək verir. Amma unutmayaq ki, Avropa ilə Rusiyanı müqayisə etmək doğru olmaz. Güclərin tərs-mütənasibliyi, Ukrayna ölkəsinin viran olması, insanların sosial vəziyyətinin ağırlaşması, dağıntılar kimi məsələlər mövcuddur. Eyni zamanda Ukrayna ilə Rusiyanın ərazisi eyni deyil. Savaş da məhz Ukrayna ərazisində getdiyinə görə artıq müharibənin davam etməsinə rəsmi Kiyevin marağı yoxdur. Amma Rusiyanın müharibədən qalib və qazanclı çıxmaq təxminlərinə görə savaşı uzada bilər. Yəni İran-İraq döyüşü kimi uzansın, axırda məcbur olub, Ukrayna Rusiyanın şərtlərini qəbul etsin, ona təslim olsun. Digər tərəfdən də bu savaşı uzatmağa Rusiyanın qüvvəti olmalıdır. Taqətin tükənməsi fonunda daxildə də təhlükələrin olması ehtimalı var. Yəni artıq etirazlar baş qaldıra bilər. Həmçinin kənardan embarqolar, sanksiyalar məlumdur. Bu cəza tədbirlərinin artması qarşılığında artıq əhalinin, dövlətin iqtisadi vəziyyəti tamamilə çökə bilər. Bu da dövlətə ciddi bir xələl gətirər. Rusiya Ukraynanı şərtlərin qəbul edilməsinə məcbur etdiyi kimi rəsmi Moskvanın özünü də dünya gücləri bu savaşı dayandırmağa sövq edəcəklər”.

**“Kremlin dünyadakı hegemonluğu artıq bir sıfır səviyyəsinə enir”**

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi




# Vaxta qənaət...

## Məlumatların əldə edilməsi asanlaşdırılır

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən aparılan rəqəmsal transformasiya və vergi xidmətlərinin elektronlaşdırılması prosesinin davamı olaraq e-taxes.gov.az portalında ”Asan İmza” şəxsi kabineti istifadəyə verilib. Məlumata görə, məqsəd rəqəmsal transformasiya ilə bağlı hökumətin təşəbbüslərini, istifadəçilərin ”Asan İmza” xidmətinə artan marağını nəzərə almaq, bu xidmətdən istifadəçilər üçün məsafədən və rahat istifadənin təmin edilməsidir.**

Platforma şəffaflıq, elektron mühafizə (konfidensiallıq daxil olmaqla) və e-təhlükəsizliyi yaxşılaşdırmaqla effektli idarəçiliyi təmin etmiş olur. Beynəlxalq standartlara uyğun yaradılmış ”Asan İmza” şəxsi kabineti istifadəçilərin vaxtına qənaət etməyə və əməliyyatları qısa müddətdə yerinə yetirməyə yönəldilmiş virtual köməkçidir. Müasir rəqəmsal köməkçi bütün qurğularda - həm kompüterlərdə, həm də planşet və smartfonlarda əlçatandır. Şəxsi kabinetdə ”Asan İmza” istifadəçisinə bir sıra imkanlar təqdim edilir. Belə ki, burada istifadəçiyə məxsus olan bütün ”Asan İmza” sertifikatlarının etibarlılıq müddəti barədə ətraflı məlumat almaq, əlavə ”İş” və ya ”Dövlət” tipli sertifikatlar üçün onlayn ərizə ilə müraciət etmək, qüvvədə olan sertifikatların etibarlılıq müddətini artırmaq, istifadəçilər tərəfindən İstifadəçi ID-nin, PİN-kodlarını dəyişdirmək və istifadəçi tərəfindən ”Asan İmza” ilə bütün imzalanmış tranzaksiyaları (PIN 2) monitorinq etmək imkanı yaradılıb. ”Asan İmza” şəxsi kabinetinin əsas funksiyalarından biri də yalnız müəssisə və təşkilat rəhbərləri üçün nəzərdə tutulmuş ”icazələr”in idarə edilməsidir. Bu funksiya vasitəsilə işçilərin ”Asan İmza” ilə elektron xidmətlərə əlçatanlığının idarə olunması barədə qərarlar verilə bilər. Bundan başqa, artıq istifadəçilərin ”Asan İmza” sertifikatlarının etibarlılıq müddətlərini yadda saxlamağa ehtiyac yoxdur, sistem əvvəlcədən bildirişləri proaktiv formada göndərir. Şəxsi kabinetdə virtual köməkçi vasitəsilə qüvvədə olan ”Vətəndaş” sertifikatı ilə ”İş” və ya ”Dövlət” sertifikatlarının əldə edilməsi üçün müraciət etmək də mümkündür. Həmçinin istifadəçilər ”Asan İmza” İstifadəçi ID-sini əlavə proqram təminatı istifadə etmədən şəxsi kabinetdə dəyişdirə bilərlər. İnnovativ xidmətlərin siyahısı daim yenilənir. Qeyd edək ki, mobil rəqəmsal imza üçün bu qədər fərqli innovativ xidmətlərin birləşdiyi belə bir şəxsi kabinet unikaldır və indiyə kimi heç yerdə istifadə edilməyib. ”Asan İmza” texnologiyası gücləndirilmiş elektron rəqəmsal imzanın dünya standartlarına uyğun yaradılıb və NIST (Milli Standartlar və Texnologiyalar İnstitutu, ABŞ), Avropa İttifaqı tənzimləyicisi - eIDAS kimi dünyanın aparıcı təşkilatları tərəfindən tanınıb və OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) tərəfindən ən innovativ təcrübə kimi təqdim olunub.

**Multimedia Mərkəzinin direktoru, elektron xidmətlərin təşviqi üzrə İctimai Şuranın koordinatoru Osman Gündüz ”Şərq”ə açıqlamasında qeyd etdi ki, ”Asan İmza”nın tətbiqində hər bir yenilik istifadəçilərin rahatlığının daha da artırılmasına xidmət edir:**

### *"Asan İmza"nın tətbiqində hər bir yenilik istifadəçilərin rahatlığının daha da artırılmasına xidmət edir*

- ”e-taxes.gov.az” portalında ”Asan İmza” şəxsi kabinetinin istifadəyə verilməsi müştərilər üçün əlçatanlığı təmin edir, məlumatların əldə edilməsini asanlaşdırır. Bu, bir menyüdür və istifadəçi ”Asan İmza” şəxsi kabinetinə daxil olmaqla xidmətlərdən daha rahat istifadə edə biləcək. Zatən ”Asan İmza”nın özü rəqəmsal texnologiyalardan asanlıqla, maneəsiz istifadəni təmin edən xidmət növüdür. Bildiyimiz kimi Azərbaycanın yeni rəqəmsal imzası SİMA artıq identifikasiya vasitəsi olaraq tətbiq edilməyə başlanıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin ”AzInTelecom” qurumunun məhsulu olan SİMA ilk olaraq ”PAŞA Bank”ın sisteminə inteqrasiya olunub. Artıq bu bankda bir sıra əməliyyatları, sənəd imzalanmasını SİMA üzərindən reallaşdırmaq mümkündür. Atılan addımlar Azərbaycanda rəqabətli elektron imza mühitinin yaranması üçün olduqca faydalıdır. Xatırladıram ki, hazırda mobil imza sektorunda bizdə uzun illərdir ki, inhisarçılıq var. ASAN Xidmətə dəxli olmayan, xarici vətəndaşa məxsus olan ASAN İmza sistemi xeyli müddətdir Azərbaycanın rəqəmsal sektorunda hökmran mövqe tutub və hər il də bu imzadan istifadə ilə bağlı qiymətlər artmaqda davam edir. Ümid edirəm SİMA-nın tətbiqi ilə bağlı işlər sürətlənəcək. Bunun üçün rəqəmsal inkişafa cavabdeh olan RİNN, AzİnTelekom və e-Gov-un inkişafına cavabdeh olan VXSİ Dövlət Agentliyi, Elektron Hökumətin İnkişafı Mərkəzi birgə SİMA-ya keçid planı hazırlamalı, konkret vaxt müəyyən olunmalıdır. Daha çevik və effektiv sistem olan, daha əlçatan olan, biometrik identifikasiyaya əsaslanan SİMA-nın təqdimatından ötən 2 ay müddətində yalnız bir quruma inteqrasiya etmək potensial imkanlar baxımından elə də ciddi irəliləyiş deyil. SİMA-nın tez bir zamanda tətbiqi dövlət və özəl sektorda, vətəndaş cəmiyyəti sektorunda rəqəmsal transformasiyanı daha da sürətləndirə bilər. Düşünürəm ki, EHİM eGov sektorunun, ASAN Login Sisteminin, dövlət qurumlarının elektron xidmətlərinin SİMA-ya inteqrasiyası üçün səylərini gücləndirməlidir.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Burdan min atlı keçdi"



**Almaz Ülvi (Binnətova),**
**Filologiya elmləri doktoru,**
**AMEA Nizami Gəncəvi adına**
**Ədəbiyyat İnstitutunun şöbə müdiri**

**Görkəmli dövlət xadimi, diplomat, tanınmış dramaturq, sevimli şair və tərcüməçi, gözəl publisist, istedadlı naşir və dost-qardaş kimi etibarlı ziyalımız Hidayətin bir neçə il əvvəl nəşr olunmuş ”Burdan min atlı keçdi” adlı kitabını yenidən vərəqləmək, bəzi qeydləri oxucu diqqətinə çatdırmaq istədik. İndi o qədər informasiya bolluğu içində yaşayırıq ki, bəzən kitabları vərəqləməyi, oxucu diqqətinə yetirməyi unuduruq.**

Amma zaman ötdükcə kitablara ehtiyac hiss edirik. Hidayətin ”Burdan min atlı keçdi” adlı kitabında aktual məzmunu ilə yaddaşları tərpədəcək və ya günümüzdə daha dərindən öyrənməyi vacib bildiyimiz tarixi səhifələr var. İrihəcmli bu kitabın bir az memuar, bir az tarixi bədii əsər xarakterli, bir az publisistik lövhələrlə zəngin olmaqla yanaşı, əslində daha çox tarixi yaddaş, milli tariximizin narahat səhifələri qələmə alınıb.

Əslində ”Burdan min atlı keçdi” əsərini ”qlavlit” ixtisarları ilə ”Ədəbiyyat və incəsənət” qəzetində, jurnal variantını 1988-ci ildə ”Azərbaycan” jurnalında, 1989-cu ildə ”Sabaha çox var” kitabında oxumuşduq. 1986-cı ildə yazılmış bu əsər nəhayət ki, Hidayətin əlimizdə olan hazırkı kitabına bütünlüklə daxil edilib. Bu kitabın əsas məziyyəti, ”fikirlərdə iki məqamın xüsusilə vurğulanmasından ibarətdir: Qərbi Azərbaycanda soydaşlarımızın qədimdən yaşaması, böyük mədəniyyət, elm yaratması, bəşəri sivilizasiyaya qoşularaq yüksək intellektə yiyələnməsi və son iki əsrdə erməni şovinizminin güclənməsi, ayrıseçkilik, deportasiya siyasəti, türk-Azərbaycan toponimlərini dəyişdirmək, tarixin saxtalaşdırılması proseslərinin açıq və ya üstüörtülü şəkildə göstərilməsi”dir.

Kitabı başdan-başa oxuyandan sonra lirik ”mən”in uşaqlıqdan ta günümüzəcən təsvir olunan taleyiilə yanaşı, sanki minlərlə insanımızın da tərcümeyi-halı ilə rastlaşırıq.

İllər öncə onun ”Qatardan məktub” adlı kitabını oxuyub çox duyğulanmışdım. Hidayət İrəvanda çox gənc yaşında, 24 yaşında Cəfər Cabbarlı adına İrəvan Dövlət Dram Teatrında direktor vəzifəsinə irəli çəkilmişdi. 16 il həmin vəzifənin ağrılarını, əzablarını öz taleyi kimi yaşamışdı. Bu vəzifənin ağrı-acısı ondan ibarət idi ki, tarixi bir teatrı erməni daşnakları içində yaşatmaq, səhnə əsərləri hazırlamaq və onları tamaşaçılar qarşısına çıxarmaq, kadrlara qayğı-diqqət, lazımi teatr avadanlıqları (səhnə geyimləri, dekorasiya və s.) əldə etmək, bir sözlə, bunları başa gətirmək nəinki çətin, hətta yuxusuz gecələr, əzab, dərd və məsuliyyət idi. Amma nəyin bahasına olursa olsun, teatr yaşamalı idi. Daşnaklarla mübarizə meydanı idi. Daşnak törtöküntüsü olan ermənilər İrəvandakı bu teatrın qarşılığı olaraq Bakıda erməni teatrı açmaq planları üzrə illərlə çalışdılar. Amma Xankəndidəki erməni teatrını sanki unudaraq, ikinci bir teatr istəyirdilər, hətta bu arzularını Heydər Əliyevə birbaşa demək cürəti və fürsəti də tapdılar. Uzaqgörən dövlət xadimi isə onların bu arzularına elə söylədikləri yerdə ”yox” cavabını almışdılar. 16 ilin ağrı-acısından, sui-qəsdlərindən, təxribatlarından yorulan Hidayət Bakıya yol almağa qərar vermişdi. Amma ürəyini, uşaqlığını, gəncliyini qoyub gəldiyi yurduna, el-obasına, ”qatardan məktub” yazmalı oldu:

**Gərək kəndimizdən çıxmayaydım heç,**
**Çapa verməyəydim beş-on şeirimi,**
**Özüm isidəydim öz nəfəsimlə**
**Öz doğma yurdumu, doğma yerimi.**

Bu misralar lirik ”mən”in peşmanlığı yox, dünyanın haqsızlığına, etibarsızlığına etirazı idi. Amma həyat davam edir: həzin, kövrək, duyğulu, həyəcanlı, təəssüf, arzu dolu istəklərlə. İnsan ümmanlara sığmayan arzu-diləklərlə yaşayır - məcrasından aşıb-daşanda da elə onun axınına təslim olur. Hidayətin yaradıcılığı haqqında bir neçə dəfə mətbuatda yazmışam: ”Şair-vətəndaş”, ”Xalqın tale itkisi”,”Bir nəğmə yazıram Yaşayıram mən ”, ”Məhəbbət yaşayır hələ”, ”İrəvan teatrı - insanlar kimi teatr da didərgindir” və bir çox məqalələrdə onun yaradıcılığına geniş yer ayırmışam.

”Burdan min atlı keçdi” adlı kitabında diqqət çəkən məqamlardan biri Heydər Əliyev fenomeninə hələ sovetlər dövründə də ermənilərin paxıl münasibətindən, ondan çəkinmələri, qorxularından məkrli arzularını həyata keçirə bilmədikləri səhifələrdir. Onlar nə istəyirdi? Hər fürsətdən yararlanıb Qarabağ torpaqları ilə yanaşı Naxçıvan, Qazax, Dilican, İcevan ərazilərindən də torpaq payı ummaları. Və utanmaz-utanmaz da dilə gətirmələri, yuxarı dairələrə qədər bu məsələni qaldırmaları, rəsmi tədbirlərin gündəliklərinə salma abırsızlıqları və s. Nə qədər ki, Heydər Əliyev hakimiyyətdədir, siyasi meydandadır, bu arzularını həyata keçirə bilməyəcəklərini anlayanda isə ilk olaraq, gizli yollarla onu aradan götürmək, nüfuzdan salmaq təbliğatına başladılar. Bu məsələləri Hidayət ”Burdan min atlı keçdi” kitabında çox səlis, ardıcıllığı, tarixi sənədlərə istinad edərək qələmə alıb. Tarix dərsliklərində gələcək nəslə tədris ediləcək dərəcədə dəqiq yazıb. Bütün dövlət idarələrində siyasi büro üzvləri sırasında Heydər Əliyevin də fotosu olardı. Soyadı ”Aliyev” yazılırdı deyə sıralamanın başından 2-ci, ya 3-cü yerdə olan bu portret Ermənistanda axırıncı yerdə olardı və o yer də həmişə boş olardı. Soruşanda isə şüşəsi qırılmışdı, təmir üçün endirmişik. Bu qədər gözügötürməzlik, bu qədər iyrənc xislətlərinə adam mat-məəttəl qalırdı. Təbii ki, bunlar sadəcə ötəri ürək bulandırmaları, həm də gizli oyunları idi. Əsərdə H.Əliyev tarixi şəxsiyyətinin İrəvanın azərbaycanlı əhalisinin hər mənada dəstəyi, qayğısı ön planda verilir.

Əsərdə adları çəkilən yer-yurd adları, qədim toponimlər məsələsinə toxunmaq istərdik.

Azərbaycan Prezidenti İlham Əliyev Kəlbəcər rayonuna səfəri zamanı belə bir tövsiyə mesajını verdi: ”İndiki Ermənistan ərazisində yerləşən bütün qədim Azərbaycan yaşayış məntəqələri əsl adı ilə çağırılmalıdır. Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın ”Yerasx” kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri”. ”Burdan min atlı keçdi” kitabında da, ondan əvvəlki bütün əsərlərində də Hidayət bir qayda olaraq, toponimlər məsələsinə həmişə xüsusi həssaslıqla yanaşıb. Qədim türk məskənlərimizin adlarını xalqın dilində, yaddaşında səsləndiyi kimi yazıb. Çünki o zaman dərdimizdə, qələmə alınan hadisələr də anlaqlı, anlamlı görünür. Erməni xislətlərindən bəhs edilən yerlərdə elə erməninin dilində verməyi də münasib bildiyi məqamlar da var. Çünki erməni xisləti yanına türk toponimləri yaraşmır. Bizim qədim torpaqlarımızda Ermənistan dövləti yaratdılar. Halbuki, o torpaqlarda son günə qədər (dekabr, 1988) toponimlər türk adları - Azərbaycan adları idi.




Kitabda bir çox tarixi yerlər, məkanlar haqqında maraqlı yazılar oxuyuruq. Müəllifin ana vətəni Mığrı rayonu və onun kəndləri can yanğısı, ürək qanı ilə - şair nəzmi ilə sığallana-sığallana, nasir ustalığı ilə təsvir edilən hıçqırıqlı tarix öz qədim adları ilə yazıya - yaddaş səhifələrə köçürülüb:

**Burada min illərdir yaşayır ellər -**
**Tarixin alınmaz şöhrət yoludur.**
**Ən zərif nəğmələr, ən şirin dillər,**
**Ən təmiz məhəbbət zəngəzurludur.**

Tarixi şəxsiyyətlər, tarixin səhifələrində yaşamağa haqqı olan şəxsiyyətlər. Kitabda bu silsilədən əməlləri və yaratdıqları ilə yaddaşlardan silinməyəcək - Rza Vəlibəyov (1903-1974), Cəfər Vəlibəyov (1907-1981), Əli Məmmədov (1908-1973), Talıb Musayev (1908-2005), Sidiqə Qədimova (1912-1986), Hüseyn Məmmədov (1915-1994), Tapdıq Əmiraslanov (1918-1976), Əli Həsənov (1920-1977), Yunus Rzayev (1923-1985), Sabir Rzayev (1924-1978), Vəli Zeynalov (1925-1985), Dursun Abbasov (1927-1991), Sabir Əsədov (1927-2002), Məhərrəm Bayramov (1928-1981), İsmixan Məmmədov (1930-1994), Həsən Səfərov (1930-1983), Həzi Musayev (1930-1998), Cahangir Əliyev (1931-2010), Cəlal Əliyev (1931-2001), Həsən Musayev (1933-1999), Qəşəm Aslanov (1934-1984), Alyoşa Bayramov (1934-1990), Mehdi Həsənov (1935-1971) və bir çox İrəvan ziyalıları -qeyrətli Vətən oğulları haqqında portret oçerklər ilk dəfə yazılmış qiymətli mənbələrdir.

Orada yaşayan azərbaycanlı əhalini nəzərə alaraq ”Sovet Ermənistanı” adlı respublika miqyaslı dövlət qəzeti çap olunurdu. Kitabda həmin qəzetin tarixi, orada fəaliyyət göstərən jurnalistlər, yaradıcı ziyalılar haqqında geniş məlumatlar öz əksini tapıb.

Kitabdan sitat: ”İrəvanda işlədiyim 18 ildə keçdiyim yollara nəzər salanda yüzlərlə belə mübahisələr, gərgin söhbətlər, bəzən münaqişələr yada düşür, mən bu kitabda onlardan üç-dördünü misal gətirirəm, məqsədim öz fəaliyyətimi göstərmək deyil, xalqımıza qarşı ”çalxalanan” nifrət, dövlət səviyyəsində aparılan milli ayrı-seçkilik siyasəti içində Azərbaycan ədəbi mühitinin, Azərbaycan teatrının özünütəsdiqetmə, qoruma və inkişaf potensialını oxuculara çatdırmaqdır”.

”İrəvana 7 məktub”, ”Orda - Zəngəzurda mənim ürəyimin məzarı qaldı”, ”Didərginlərə məktub”, ”İkinci ”Əfqanıstan” yaradılır? Nə üçün?!”, ”Həqiqət kar deyil”, ”Ağlınızı başınıza yığın”, ”Heç kəs mübarizəsiz, vuruşsuz məğlub olmaq istəmirdi” başlıqlı tarixi-publisistik yazılarda min bir mətləb açıqlanır. Bu qədər irihəcmli (744 səh.) kitabı birnəfəsə oxumaq olur, amma oradakı yazıların, fikirlərin dərinliyinə enib təhlil etmək oxucunu çox düşündürür.

”Burdan min atlı keçdi” kitabı tarix dərslərində tədris olunacaq vəsaitdir. Tariximizin bir hissəsinin daş yaddaşıdır. Həm də yuxarıdakı fikrimizin təkrarı kimi səslənsə də, bu bir memuar əsəridir, həmçinin təzkirə izlərinin əksi ilə rastlaşırıq. Eyni zamanda, əsər Heydər Əliyev fenomeninə tarixi faktlar, hadisələr miqyasında nəzər salnaməsidir.

Orada yaşadığı illərdə çox ziyalılarla əməkdaşlıq ünsiyyətində olan müəllif yazır ki, bütün tanıdıqları ”hərə öz atına minib getdi” və onların təkcə öz yadında yox, ədəbiyyat, tarix, kitab yaddaşına köçürülməsi də milli maraqlarımız üçün çox vacibdir.

# "Həyat yoldaşıma görə narahatam"

## Olena Zelenski: "Övladlarımı qorumaq üçün lazım olan nə varsa edirəm"

*(Əvvəli səh: 8-də)*

**Bizi bölməyə, parçalamağa, daxildə savaşı körükləməyə çalışdılar, amma bacarmadılar. Ukraynalılarla belə davranmaq mümkün deyil. Birimiz işgəncə gördükdə və ya öldürüldükdə hər birimiz bunu hiss edirik. Vətəndaşlıq hissinin yaranması və ya yüksəlməsi üçün təbliğata ehtiyacımız yoxdur.**

**- Mənəvi baxımdan necə dirəniş göstərə bilirsiniz? Bu müddət ərzində müraciət etdiyiniz hansısa dostunuz, dəstək aldığınız bir mənbə varmı? Müharibənin ilk həftələrində və indi həyat yoldaşınızla nə qədər təmasdasınız?**

- Başlanğıcda duyğularla hərəkət etməyə zamanım yox idi. Uşaqlarımla maraqlanmalıydım, onların hansı hisslər keçirdiyini bilməliydim. Onların qarşısında özünə güvənən, enerjili, gülümsəyən bir ana olmalıydım. Uşaqlara zirzəmiyə enməli olduğumuzu və buna görə işıqları yandıra bilməyəcəyimizi söylədim. "Atamızı nə vaxt görəcəyik" sualına da inandırıcı bir şəkildə "yaxın zamanda" cavabını verdim. İlk günlər həyat yoldaşımla birlikdə ola biləcəyimi düşünürdüm. Amma Prezident ofisi hərbi mərkəz halına döndü, artıq mənim və övladlarımızın orada qalması mümkün deyildi. Təhlükəsiz bir yerə köçməliydik. Bizə bu əmr edildi. O zamandan bəri Vladimirlə yalnız telefonla danışıram.



*"Artıq bütün digər ukraynalılar kimi yaşayırıq. Hamımızın bir arzusu var-sülh"*

**- Hazırda yaşayışınız necədi?**

- Artıq bütün digər ukraynalılar kimi yaşayırıq. Hamımızın bir arzusu var; sülh. Mən hər bir ana və həyat yoldaşı kimi təbii ki, həyat yoldaşıma görə narahatam və övladlarımı qorumaq üçün lazım olan nə varsa edirəm.

**- Sizə ümid verən nədir?**

- Ailəm. Hər bir ukraynalı kimi. Və millətim. Orduya və bir-birilərinə yardım etmək inanılmaz şəkildə birləşən insanlarımız. Hər kəs əlindən gələni edir. Zəfərə yaxınlaşmağa can atırlar. Ukraynalılar belədir. Ona görə də ümidliyik. Zəfərə inanırıq.

**Hazırladı: Məlahət Rzayeva**

# Qiymətlər həddindən artıq bahadır

## Heç orta təbəqə də uşaqlarını parklarda əyləndirə bilmir




**Son zamanlar dövlət parklarında müşahidə olunan bahalıq əhalinin böyük qisminin narazılığına səbəb olur. Xüsusilə də, valideynlərin uşaqları ilə üz tutduğu parklardakı qiymətlər əl yandırır. Azyaşlılar üçün nəzərdə tutulmuş atraksionların qiymətləri isə çox yüksəkdir. Çox qısa müddət üçün tələb olunan məbləğ parklara üz tutan insanlarınn ciddi reaksiaysına səbəb olur.**

**Sözügedən mövzu ilə bağlı "Şərq"ə danışan Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq, jurnalist Elçin Bayramlı bildirib ki, bu parklardan cəmiyyətin bütün təbəqələri istifadə edə bilməlidir:**

"Parklarda atraksionlar sahibkarlara məxsusdur və onlar park rəhbərliyinə icarə haqqı verir. Dənizkənarı Milli Parkda xüsusilə bahalıqdır. Həmin parkın digərlərindən fərqli olaraq milli park statusu var. Yəni, bu park bütün sosial təbəqələr üçün əlçatan olmalıdır. Amma heç orta təbəqə də bu parklarda uşaqları ilə istirahət edə bilmir. Qiymətlər həddən artıq bahadır".

**Ekspert qeyd edib ki, qiymətlərin baha olmasında rüşvət amili də var:**

"Hər adamı atraksion qoymağa buraxmırlar. Həm də həmin şəxslərdən rəsmi və qeyri-rəsmi ödənişlər alırlar. Onlar da məcbur olub qiyməti baha edirlər. Digər şəhər parklarında da belədir. Ən ucuz atraksion 1-2 manatdır. Hətta "Şeytan Çarxı" atraksionunda qiymət, səhv etmirəmsə, 6 manatdır. Adi bir yelləncəkdir, 100 insan eyni anda ondan istifadə edə bilir. Onun maya dəyəri nədir ki?! Belə çıxır ki, onlar gün ərzində 10 min manat qazanmaq istəyirlər".

**E.Bayramlı sözügedən məsələ üçün çıxış yolunu parkların bələdiyyə nəzarətinə verilməkdə görür:**

"Bu, belə olmamalıdır. Bütün ölkələrdə istirahət parkları, açıq idman mərkəzləri bələdiyyənin nəzarətindədir. Bizdə də eyni qayda tətbiq olunmalıdır. Təkcə atraksionlar yox, velosiped sürmək və tennis oynamaq üçün qiymətlər də həddən artıq bahadır. Bu, biabırçılıqdır, qarşısısnı almaq lazımdır. Çünki ölkənin hamısı heç də imkanlı deyil. Aztəminatlı təbəqələr də var. Sağlam nəsil böyütmək istəyiriksə, ölkəmizdə uşaqları sındırmamalıyıq. Niyə uşaq öz uşaqlığını yaşamasın? Bu, uşaqlar üçün psixoloji travmadır. Biz özümüzə gələcəkdə nifrət edən nəsil yaradırıq. Bu uşaqlar gələcəkdə öz ölkəsinə buna görə nifrət edəcək. Bu çox pis tendensiyadır, az qala sosial terrordur. Ona görə, bütün atraksionları bələdiyyənin nəzarətinə vermək lazımdır və tender elan olunmalıdır. Bu, özlərinə də xeyir edəcək. Sərf edilən eyni enerjiyə daha çox insan maraq göstərəcək".

**Çimnaz**

# Bütün dönərxanalarda mütləq texnoloqlar olmalıdır

## Toyuq dönərləri riskli qida məhsullarının arasında ilk sıralardadır



**Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli Azərbaycanda toyuq dönərinin satışına heç bir məhdudiyyət qoyulmadığını bəyan edib. Sədrin sözlərinə görə, əvvəllər toyuq dönərlərinin hazırlanması haqqında müəyyən standartlar tələb olunsa da, artıq bu proses könüllülük fəaliyyəti daşıyır.**

Ekspertlər isə hesab edir ki, toyuq və ət dönərinin hazırlanmasında müəyyən sanitariya qaydaları var və onlara əməl olunmalıdır.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən qida üzrə baş mütəxəssis Ağa Salamovun sözlərinə görə, ölkədə mövcud olan dönərxanaların əksəriyyəti standartlara uyğun qaydada işləmir:** "AQTA sədri toyuq dönərlərinin satışı ilə bağlı heç bir qadağa olmadığını deyib. Bəs dönərxanaların kritik nəzarət nöqtələrinə nəzarəti kim aparmalıdır? Bu barədə heç bir açıqlama verməyib axı!? Bu proses könüllülük fəaliyyəti daşıyırsa, deməк, standartları sahibkar özləri müəyyən edəcək? Azərbaycanda dönərxana sahibi olan insanlar bu sahənin peşəkarı deyillər. Dünya ölkələrində bu işə texnoloqlar baxır, satılan qidalarla bağlı bütün məsuliyyət onların üzərində olur. Azərbaycanda fəaliyyət göstərən dönərxanalarda texnoloqlar da yoxdur. Ümumiyyətlə, ictimai iaşə müəssisələrinin hər birində texnoloqlar olmalı və aşpazlar mütləq peşəkar, standartlara cavab verən adamlar olmalıdır. Dönərlər peşə təhsilli və xüsusi təlim keçmiş aşpazlar tərəfindən hazırlanmalıdır. Hər yerindən duran şəxsin dönərxanada işləməsi düzgün deyil".

**Toyuqda salmonella bakteriyalarının olduğunu vurğulayan A.Salamov hesab edir ki, mütləq saxlanma şərtlərinə əməl edilməlidir:** "Toyuq əti bişirilərkən verilən istiliyin dərəcəsi və miqdarı da önəmlidir. Dönərin yaxşı bişirilməməsi, dönər hazırlanan zaman istifadə edilən qida məhsullarının uyğun şəraitdə saxlanılmaması və hazırlayan şəxsin sanitar-gigiyenik normalara əməl etməməsi kimi hallar zəhərlənməyə yol aça bilər.

Saatlarla isti havada, günəş şüaları altında qalan dönəri istehlakçılara satırlar. Bu reallıq fonunda hansı könüllü standartlardan danışmaq olar. Sahibkarlar üçün önəmli olan məhsulunun satılmasıdır, insanların sağlamlığı onları zərrə qədər də maraqlandırmır. Düşünürəm ki, bu açıqlama ilə AQTA məsuliyyəti öz üzərindən atır".

Riskli qida məhsulları arasında toyuq dönərinin ilk sırada olduğunu vurğulayan mütəxəssisin dediyinə görə, məhz bu səbəbdən toyuq dönərlərindən zəhərlənmə faktları daha çox qeydə alınır: "Toyuq ətinə daha çox salmonella bakteriyaları toplanır. Bu bakteriya qırmızı ətdə, süd məhsulları və yumurtada ola bilər. Bakteriyaya yoluxmuş toyuq əti normal qaydada bişirilmədikdə zəhərlənməyə və xəstəliyə səbəb olur. Çünki bu zaman bakteriyalar ölmür. Bu azmış kimi dönərxanalarda mayonez məhsulları günəşin altında, otaq temperaturunda, saatlarla qaldıqdan sonra istifadə olunur. Halbuki, dönərin hazırlanması üçün istifadə edilən tez xarab olan ərzaq məhsulları qüvvədə olan sanitar norma və qaydalara riayət etməklə soyuducularda saxlanılmalıdır".

**Şəymən**

# İlk "TEKNOFEST AZƏRBAYCAN"

# Azercell-in baş sponsorluğu ilə keçiriləcək

## 26-29 may tarixlərində "Bakı Kristal Zalı" və Dənizkənarı bulvar ərazisində baş tutacaq tədbirdə Azercell-in stendində ən son innovativ həllər də sərgilənəcək

**Türkiyə Teknoloji Takımı Vakfı (T3 Vakfı), Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı və Azercell-in baş sponsorluğu ilə bu ilin 26-29 may tarixlərində ölkəmizdə ilk dəfə olaraq "Teknofest Azərbaycan" Aerokosmik və Texnologiya festivalı keçiriləcək.**

Baş tutacaq festival çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələrinin keçirilməsi nəzərdə tutulub. Festival zamanı "Smart Qarabağ" Hakatonu, "Take Off Baku" Startap Sammiti və "Rocket League" kiber idman üzrə Avropa Çempionatı təşkil olunacaq. Rəqəmsal məhsullar və xidmətlər sərgisi, texnologiya sahəsində müxtəlif yarışma və əyləncəli proqramları özündə birləşdirən bu irimiqyaslı tədbirdə "Azercell Telekom" MMC baş sponsor olmaqla yanaşı, ayrıca stendlə iştirak edəcək. 25 illik fəaliyyəti ərzində Azərbaycana daim qabaqcıl texnologiyaları gətirən Azercell şirkəti sərgidə özünün "Bağlantını asanlaşdırır, həyatı dolğun edirik" strateji məqsədini reallaşdıran məhsul və həllərini təqdim edəcək. Festival günlərində Azercell-in stendinin ziyarətçiləri maraqlı xidmətləri izləməklə yanaşı, hədiyyələr qazandıran maraqlı müsabiqələrdə iştirak imkanı əldə edəcəklər.

Ümumilikdə sərgidə festivalın tərəfdaş qurumlarının xidmətləri, o cümlədən gənc texnoloqların hazırladıqları prototiplər və STEM layihələrinin nümayişi nəzərdə tutulur. Festivalın açıq səma altında təşkil olunacağı bölməsində də pilotsuz uçuş aparatları və vertolyotların sərgilənməsi planlaşdırılır.

Festivalın əyləncə proqramına Azərbaycan Hərbi Hava Qüvvələrinin, eləcə də Türkiyənin məşhur




"Türk Ulduzları" və "Solo Türk" aerobatika komandalarının nümunəvi pilotaj uçuşları daxildir. "Teknofest Azərbaycan" festivalında həmçinin şaquli külək tuneli, su attraksionları, uçuş simulyatorları, robotlar və s. nümayiş etdiriləcək. Ziyarətçilər həmçinin incəsənət xadimlərinin konsertini də izləyə biləcəklər.

2018-ci ildən etibarən keçirilən Türkiyənin ən böyük aviasiya, kosmos və texnologiya festivalının məqsədi milli texnologiyaları təbliğ etməklə bu sahədə məlumatlılığı artırmaq, həmçinin gənclərin bilik və bacarıqlarının üzə çıxarılmasına imkan yaratmaqdan ibarətdir.

# Gəlini Mətanəti məhkəmədə udub

## Müğənni qanunu heçə sayaraq uşaqları vermək istəmir



**"Övladlarımı vermirlər. Martın 25-i məhkəmə olacaqdı, yenə uzadıldı. Müddəti uzatmağın səbəbini söyləmirlər".**

Bu sözləri "Şərq"ə açıqlamasında Mətanət İsgəndərlinin keçmiş gəlini Canana deyib.

**Canana uşaqlarının öz xoşlarıyla geri dönməsini istəyir:**

"Barışığa gəldim ki, bəlkə nənələri insaflı davranar. Uşağa hər şey alıb qarşısına qoyurlar. Kompüterin var, evin rahatdır, anan verə bilməyəcək deyirlər. Övladımı məcbur götürmək istəmirəm, onların psixologiyasını düşünürəm".

**O, övladlarıyla mütəmadi görüşə bilmədiyini vurğulayıb:**

"Görüntülü danışırıq. Apelyasiya Məhkəməsini udmuşam. Üç uşaq mənim qeydiyyatımdadır. Ancaq hələ qanunu təsdiqləməyiblər".

Qeyd edək ki, Canana M.İsgəndərlinin oğlu Kərimdən ötən il boşanıb. Cütlüyün üç uşağı atada qalıb. Daha sonra Canana Apelyasiya Məhkəməsinə müraciət edib. Hakimin qərarı ilə övladları ananın qəyyumluğuna verilib.

**Aygün Tahir**


**Elan**

Hacıyev Füzuli Əsgər oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi və sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1022**



## Qızardılmış pomidor xərçəngin ən yaxşı dərmanıdır

**Pomidor likopinlə zəngindir. Bu maddə güclü xərçəng əleyhinə təsirə malikdir. Həmçinin likopin ürək-damar sistemi xəstəliklərinin riskini azaldır.**

Maraqlıdır ki, pomidorda olan likopinin miqdarı termik emaldan sonra xeyli artır. Eyni zamanda yağlarla birlikdə yedikdə likopin orqanizm tərəfindən daha yaxşı mənimsənilir. Bütün bunları nəzərə alaraq mütəxəssislər pomidoru yağda bir qədər qızardıb yeməyi tövsiyə edirlər.

Sağlamolun.az xarici KİV-lərə istinadla bildirir ki, ən faydalı göyərtilərdən biri olan ispanaq da termik emaldan sonra daha faydalı olur, onun tərkibində olan kalsium, maqnezium və dəmir daha yaxşı mənimsənilir.

## Dünyada elektrik avtomobillərin satışı iki dəfə artıb



**2021-ci ildə dünyada 4,6 milyon elektromobil satılıb ki, bu da 2020-ci illə müqayisədə təxminən iki dəfə çoxdur.**

Trend-in məlumatına görə, bu barədə Yaponiyanın "Nikkei" nəşri yazır.

Qeyd olunur ki, elektrik avtomobillərin satışı ən çox Avropa ölkələri və Çinin payına düşür.

Təkcə Çində ötən il 2,9 milyondan çox elektromobil satılıb. Bu, 2020-ci illə müqayisədə 2,6 dəfə çoxdur.

Eyni zamanda, 2021-ci ildə dünyada hibrid avtomobillərin satışı 35 faiz artaraq 3,1 milyona çatıb.

## İranda qadağandır

### Qadınlarla kişilər eyni parkda gəzə bilməzlər



**İranda kişilərlə qadınlar eyni parkda gəzə bilməyəcək.**

**Lent.az xəbər verir ki, bu barədə "Azad İran" telegram akanlı məlumat yayıb. Qərarın Tehran bələdiyyəsi tərəfindən verildiyi bildirilir. Qərara əsasən, bundan sonra şəhər parklarında qadınların kişilərlə eyni parkda gəzməsi qadağandır.**

## Britni Spirs 27 yaşlı sevgilisindən hamilə qalıb



**Amerikalı pop müğənni Britni Spirs hamilədir.**

**Oxu.az xəbər verir ki, bu barədə sənətçi öz "İnstagram" səhifəsində məlumat paylaşıb.**

**40 yaşlı Britni Spirsin dünyaya gətirəcəyi uşağın atası isə onun 27 yaşlı fitnes məşqçisi Sem Asqardır.**

## Bekhem oğluna yarım milyonluq maşın hədiyyə etdi





**İngiltərə millisinin sabiq futbolçusu Devid Bekhem oğlunun toyunda ona investoru olduğu "Lunaz" avtomobil firmasının ən bahalı maşınını hədiyyə edib.**

**Qafqazinfo xəbər verir ki, sosial mediada Bekhemin oğlu Bruklin və gəlini Nikolanın toyu münasibətilə onlara 435 min dollar maşın alıb. Araşdırmalardan sonra məlum olub ki, "Lunaz Jaguar" adlı avtomobil 1954-cü il istehsalıdır və ötən il elektriklə təchiz olunub. Bu da onun qiymətinin artmasına - yəni təxminən yarım milyona gəlib çatmasına səbəb olub.**

## Amerikalı mütəxəssislər "yuxuda olan" batareya yaradıblar



**Amerikalı mütəxəssislər enerjini səmərəli şəkildə aylarla saxlaya bilən akkumulyator hazırlayıblar.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, ABŞ Enerji Departamentinin alimləri mövsümi məqsədlər üçün istifadə oluna bilən akkumulyator yaratmağa çalışıblar. Məsələn, bir batareya yazda enerji toplaya bilər, onu qoruya bilər və sonra payız-qış dövründə paylaya bilər.**

**Laboratoriya şəraitində yaradılan akkumulyator 12 həftəlik yuxudan sonra 92 faiz enerji tutumunu saxlayıb. Belə akkumulyatorlar il ərzində bir və ya iki dəfə doldurulub boşaldılacağı üçün uzun illər istifadə üçün nəzərdə tutulub.**









# "Həyat yoldaşıma görə narahatam"

### Olena Zelenski: "Övladlarımı qorumaq üçün lazım olan nə varsa edirəm"

**Ukrayna prezidentinin həyat yoldaşı, ölkənin birinci xanımı Olena Zelenski Rusiya işğalının başladığı gündən yaşananları, keçirdiyi hissləri "Vogue" dərgisinə anladıb. Birinci xanım "bütün ukraynalılar necə yaşayırsa, biz də o cür yaşayırıq artıq. Hamımızın bir arzusu var; sülh.**

Mən hər bir ana və həyat yoldaşı kimi təbii ki, həyat yoldaşıma görə narahatam və övladlarımı qorumaq üçün lazım olan nə varsa edirəm", deyib. "NTV.com.tr" Olena Zelenskinin müsahibəsindən müəyyən hissələri təqdim edib.

**- İşğalın ilk gününü anlada bilərsiniz, nələri dəqiq xatırlayırsınız?**

- Başlanğıcı çox yaxşı xatırlayıram. Normal bir iş günü və axşam idi. Uşaqlar məktəbdən qayıtmışdı, ev işləri, növbəti dərs gününə hazırlıq... Gərgin idik. Hər yerdə mümkün işğal haqqında çox danışılırdı. Amma son anadək bunun baş verəcəyinə inanmaq imkansızdı. XXI əsrdə işğal?!. Modern dünyada?!. Saat 4 ilə 5 arası bir səsə oyandım. Partlayış olduğunu anladım. Nələr baş verəcəyini isə anlamadım. Həyat yoldaşım yataqda deyildi. Amma yataqdan qalxanda onu ayaq üstə, artıq geyimli gördüm və "başladı", dedi. Dediyi təkcə bu oldu.

**- Oğlunuz 9, qızınız 17 yaşındadır. Baş verənlər haqqında onlara nə dediniz?**

***"Artıq bütün digər ukraynalılar kimi yaşayırıq. Hamımızın bir arzusu var-sülh"***

- Onlara əlavə nəsə başa salmağa ehtiyac yoxdu. Ukraynadakı bütün uşaqlar kimi onlar da hər şeyi özləri görürlər. Əlbəttə, olanlar uşaqların görməsi gərəkən hadisələr deyil, amma uşaqlar, ümumiyyətlə, çox dürüst və səmimidirlər. Onlardan nəyisə gizlətmək mümkün deyil. Buna görə də ən düzgün strategiya həqiqəti söyləməkdir. Qızım və oğlumla baş verənlər barədə danışdıq. Onların suallarına cavab verməyə çalışdım. Bu gün də uşaqlarımla çox danışıram, çünki nəyin acı, kədər gətirdiyini söyləmək, səssiz qalmaqdan, özünə qapanmaqdan yaxşıdır və insana kömək edir.



**- Şəxsi və bir vətəndaş olaraq duyğularınızı tərif edə bilərsiniz?**

- Müharibə hər kəsi, xalqı birləşdirdi. Və bu, şübhəsiz, bizə hücum edənlərin ölümcül xətası oldu. Hamımız öncə ukraynalıyıq, bundan sonrası isə əhəmiyyətsizdir.

*(Davamı səh: 7-də)*

**Hazırladı: Məlahət Rzayeva**



# Türkmən qadınlara qadağa

### Dodaqlarını böyütsələr cərimələnəcəklər

**Türkmənistanın Məryəm vilayətinin Bayraməli şəhərinin hüquq-mühafizə orqanlarının əməkdaşları bu günlərdə yerli gözəllik salonlarına gedərək qadın və qızlara bəzi kosmetik xidmətlərin göstərilməsinin qadağan edildiyini bildiriblər. Salon sahiblərinə qadağanın pozulması halında ağır cərimələr və 15 sutka həbslə bağlı xəbərdarlıq edilib.**

Hüquq-mühafizə orqanlarının əməkdaşları xəbərdarlıq edirlər ki, botoksun tətbiqi, üzdəki qırışların hamarlanması, kirpiklərin uzadılması, dodaqların böyüdülməsi və saxta dırnaqların istifadəsi kimi xidmətlərin göstərilməsinə qadağa qoyulub. Bu barədə aprelin 11-də müxbirimizlə anonim söhbətində gözəllik salonları bildirib.

Milli.Az xəbər verir ki, "Azadlıq" radiosunun türkmən xidmətinin müxbiri ilə söhbət edən gözəllik salonları ustalarının sözlərinə görə, hüquq-mühafizə orqanlarının əməkdaşları qadağanın tətbiqini təsdiq edən heç bir sənəd göstərmir və onun səbəblərini izah etmirlər. Amma onlar xəbərdarlıq edirlər ki, qadağanı pozan və yuxarıda göstərilən xidmətlərdən istifadə edən qadınlar "bədənində yad əşyalardan istifadə etdikdə" saxlanılaraq 300-500 manat cərimə oluna bilərlər.

Hüquq-mühafizə orqanlarının əməkdaşları da xəbərdarlıq edir ki, bu xidmətləri göstərən salonlar və onların əməkdaşları müəyyən ediləcək.

"Bu xidmətləri göstərən ustalar 500-1000 manat cərimə olunacaq və ya 15 gün müddətinə həbs olunacaqlar", - gözəllik salonu işçisi hüquq-mühafizə orqanlarından sitat gətirib. Salon işçiləri bu cür qadağalar qarşısında normal işləyə və çörək qazana bilməyəcəklərindən şikayətlənirlər.

"Serdar Berdiməhəmmədv prezidentliyə keçməsi ilə karantin məhdudiyyətlərini yumşaltmağa başlayandan sonra işə təzəcə qayıtdıq. Amma yenə də işimiz məhduddur. Bəs niyə biz də indi bazarlara gedib dilənməliyik? Beləliklə, karantin zamanı borcumuz oldu və onları ödəməyə hələ vaxtımız olmadı" deyə gözəllik salonunun ustası bildirib. "Azadlıq" radiosunun müxbiri bu vəziyyətə münasibət öyrənmək üçün Bayraməli şəhər polis şöbəsi ilə əlaqə saxlamağa çalışıb. Amma aprelin 11-də redaktorlarımızın departamentlə əlaqə saxlamaq üçün dəfələrlə cəhdləri baş tutmayıb.

Türkmənistan hakimiyyəti tərəfindən qadağan edilən kosmetik xidmətlər dünyanın əksər ölkələrində normal prosedurlar hesab olunur və qadınlar heç bir maneə olmadan onları ala bilərlər.

## "Nokia" Rusiya bazarından çıxır




**Telekommunikasiya avadanlıqları istehsalçısı "Nokia" kompaniyası Ukrayna ətrafında yaranan vəziyyət səbəbindən Rusiya bazarını tərk etmək qərarına gəlib.**

Bu barədə məlumat "Nokia" kompaniyasının press-relizində yer alıb.

"Rusiyada mövcudluğumuz mümkün deyil. Son həftələr tədarükləri və yeni biznes fəaliyyətlərini dayandırmışıq, hazırda məhdud elmi-tədqiqat işlərimizi Rusiyadan kənara çıxarırıq. Artıq Rusiya bazarından çıxdığımızı elan edə bilərik", - məlumatda belə deyilir.

"2021-ci ildə satışlarımızın yalnız 2 faizdən azı Rusiya bazarında reallaşıb. Digər regionlarda müşahidə olunan yüksək tələbi nəzərə alsaq, qərarın 2022-ci maliyyə ili üçün gözlənilən proqnozlara təsir edəcəyini gözləmirik", - deyə "Nokia" kompaniyası qeyd edib.

Qərargahı Finlandiyanın Espoo şəhərində yerləşən transmilli "Nokia Corporation" kompaniyası əsasən mobil, stasionar, genişzolaqlı və İP şəbəkələri üçün telekommunikasiya avadanlıqlarının istehsalı ilə məşğul olur.

**Cəmilə Əzim**

## Ürəkləri isidən görüntü...

### Taksi sürücüsü yaşlı qadını evinə belində apardı



**İstanbulda taksi sürücüsü çətinliklə hərəkət edən yaşlı qadını ikinci mərtəbədəki mənzilinədək belində daşıyıb.**

Sosial mediada yayılan görüntü sürücüyə böyük rəğbət qazandırıb. "İnsanlıq hələ ölməyib", deyən izləyicilər sürücünün bu hərəkətini yekdilliklə təqdir ediblər. Başqa cür ola da bilməzdi. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, taksi sürücüsü Süleyman Güngör 59 yaşındadır. 15 ildir taksi sürücüsüdür. İstanbul Sabiha Gökçen hava limanı ərazisində məsuldur. Bu dəfə də hava limanı ərazisində taksiyə minən müştəriləri Eyubsultan bölgəsinə aparıb, oradan qayıdarkən küçədə hərəkət etməkdə çətinlik çəkən yaşlı qadın diqqətini cəlb edib. Qadının ətrafında qonşuları da varmış. Lakin onlar güclə addım atan qadına kömək edə bilmirdi. Bunu görən sürücü taksidən enib qadına yaxınlaşır və "xala, gəl səni evinə aparım", deyir. Yaşlı qadını və yanındakı 2 qadını da taksiyə mindirir. Qadın evinə çatdıqda isə məlum olur ki, ikinci mərtəbəyə qalxması çox çətindir. Sürücü yenə qadına kömək edir, belinə alıb ikinci mərtəbəyə qaldırır. Sürücünün bu xeyirxahlığını qonşu qadın mobil telefonla çəkib. Görüntülər sosial mediada yayıldıqdan sonra taksi sürücüsü hadisə barədə İHA-ya danışıb. Süleyman Güngör deyib ki, qadının duası onun üçün hər mükafata dəyər: "mənə dua etdi. Çox sevindim. Bu, mənim vəzifəmdir, bunu hər kəs edər. Xala, "məni İstanbulun bu başından o başına apar" desəydi də, aparacaqdım. Ürəyimdən keçdi, kömək etdim". S.Güngörün iş yoldaşları da onun haqqında xoş sözlər deyib. S.Güngörün məsləyini sevdiyini, köməyə ehtiyacı olanlara daim bacardığı qədər yardım etdiyini, müştərilərin daim ondan razı qaldıqlarını söyləyiblər. S.Güngör İstanbulun qonaqlarıyla da xüsusi nəzakətlə davranır. İstanbula ilk gələn müsafirlərə şəhərin gəzməli-görməli yerləri barədə məlumat verir, onları istədikləri məkana tez və rahat çatdırır. Qısası, hamı Süleyman Güngördən razıdır.

**Məlahət**